QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 205 (5436) 9 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib

*Prezident İlham Əliyev mərasimdə iştirak edib*




Səh 2


"Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir" 6



Əli Həsənov: "Türkiyədə Heydər Əliyevə olan məhəbbət bələdiyyələrin fəaliyyətində də özünü büruzə verir" 8



Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub 8



"Mediada kriminal hadisələrin işıqlandırılması: İctimai maraqlar və peşəkarlıq" mövzusunda "dəyirmi masa" keçirilib 9



Bu gün ölkəmizdə 9 Noyabr Dövlət Bayrağı Günü qeyd olunur 13



Bakı metropolitençiləri 50 illik yubileyini qeyd edib 10



10 "Eurovision-2018"də ölkəmizi təmsil edəcək ifaçının adı açıqlanıb




9 Azərbaycan şərabları növbəti dəfə Honqkonq şərab və spirtli içkilər sərgisində nümayiş olunacaq




10 Gələcəkdə Bakı ilə Sumqayıt arasında metrobus xətti açıla bilər



# Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*

***Noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı mərasimdə nitq söylədi:***




-Hörmətli neftçilər. Xanımlar və cənablar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda 2 milyardıncı ton neft hasil edilibdir. Bu münasibətlə Azərbaycan neftçilərini və bütün Azərbaycan xalqını təbrik edirəm.

Bu, tarixi bir hadisədir. Azərbaycan neftçiləri bütün dövrlərdə Azərbaycan xalqına xidmət etmişlər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilmişdir. Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir. Mən Azərbaycan neftçilərinin Azərbaycanın ümumi inkişafında rolunu çox yüksək qiymətləndirirəm.

Azərbaycan neftin vətənidir, Azərbaycanda bunu hər kəs bilir. İndi dünya ictimaiyyəti də bunu bilir ki, dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə Azərbaycanda çıxarılmışdır və o vaxt Azərbaycan dünya neftinin əsas hissəsini təmin edirdi. Tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır və bu da tarixi hadisədir. Azərbaycan neftçiləri sovet dövründə Xəzərin



bütün neft-qaz yataqlarının aşkar olunmasında əsas rol oynamışlar, Rusiya Federasiyasında yeni neft yataqlarının kəşfində onların rolu çox böyükdür. Təsadüfi deyil ki, "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılan yerlər var ki, bu yerlər Azərbaycan neftçilərinin adı ilə bağlıdır. Neftçilərimiz xarici ölkələrdə də işləyirdi, oraya ezam olunmuşdular. Əlbəttə ki, bu, Azərbaycanda neft sənayesində çalışan insanların peşəkarlığını, fədakarlığını göstərir.

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır. Bu gün isə qaz ölkəsi kimi tanınır. Müstəqillik dövründə bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Sovet dövründə də Azərbaycan neftçiləri Sovet İttifaqının ümumi inkişafına çox böyük töhfələr vermişlər. O vaxt Azərbaycan müttəfiq respublikalar arasında ikinci respublika idi ki, donor kimi tanınırdı. Yəni, biz ümumittifaq büdcəsinə daha çox vəsait ayırırdıq, nəinki alırdıq. Əlbəttə ki, Azərbaycan neftçilərinin bu sahədə payı çox böyük idi.

1971-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilmişdir. 1970-1980-ci illərdə Heydər Əliyev Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfə vermişdir, o cümlədən neft sənayesinin inkişafı üçün çox böyük addımlar atılmışdır. O vaxt neft hasilatının artırılması, yeni qurğuların işə düşməsi, dərin özüllər zavodunun məhz Azərbaycanda tikilməsi, neftayırma zavodunun rekonstruksiyası və digər önəmli hadisələr Azərbaycanın neft potensialını böyük dərəcədə möhkəmləndirmişdir. O illərdə yaradılmış potensial, xüsusilə dərin özüllər zavodunun fəaliyyəti bu gün də bizim neft potensialımızı gücləndirir. Əgər vaxtilə bu zavod Azərbaycanda yox, başqa bir yerdə tikilsəydi, o zaman bizim müstəqillik dövründə xarici tərəfdaşlarla işlərimiz ləng gedə bilərdi. Dərin özüllər zavodu bugünkü bizim neft strategiyamızın həyata keçirilməsində xüsusi rol oynayır.

Heydər Əliyev Azərbaycandan gedəndən sonra bütün sahələrdə olduğu kimi, neft-qaz sahəsində də tənəzzül yavaş-yavaş özünü büruzə verməyə başlamışdı və 1990-cı illərin ərəfəsində artıq neft hasilatı ilə bağlı problemlər yaradılmışdı.

*Ardı Səh. 3*

# Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*





Əvvəli-Səh-2

Müstəqilliyimizin ilk illərində bu problemlər daha da dərinləşdi. Müstəqilliyimizin ilk illəri bizim üçün çox ağır keçirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəni idarə edənlər öz məsuliyyətini dərk edə bilmədilər, səriştəsiz, bir çox hallarda savadsız kadrlar qabağa çəkildi, ölkə xaosa büründü, anarxiya hökm sürürdü, Bakıda və digər şəhərlərdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu və bütün bu xoşagəlməz hadisələr nəticədə vətəndaş müharibəsinə gətirib çıxardı. Yenə də Heydər Əliyev öz tarixi missiyasını icra etdi. Azərbaycanı bu böyük bəlalardan qurtardı, Azərbaycana sabitlik gətirdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu. Məhz 1993-cü ildən başlayaraq Azərbaycan bu günə qədər inkişaf yolu ilə gedir.

Ancaq Azərbaycan iqtisadiyyatına, Azərbaycan sənayesinə, o cümlədən neft sənayesinə vurulmuş zərbələr də çox ağır idi. Bugünkü mərasimdə Azərbaycanın tanınmış neftçiləri, veteranlar, o illəri yaxşı xatırlayan insanlar əyləşiblər. Onlar çox yaxşı bilirlər ki, Azərbaycan neft sənayesinin 1990-cı illərin əvvəlində vəziyyəti necə idi. Bu vəziyyətdən biz çıxış yolu axtarmalı, tapmalı idik və Heydər Əliyev neft strategiyası yeganə çıxış yolu idi. 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması bu sahədə dönüş yaratdı. "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və bayaq qeyd etdiyim kimi, çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat demək olar ki, tamamilə dağıdılmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi, inflyasiya min faizlərlə ölçülürdü, kütləvi işsizlik hökm sürürdü, yoxsulluq dərəcəsi artırdı. Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayəni gətirmək doğrudan da böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyev neft strategiyası bax, bu çağırışlara cavab verdi.



Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış "Əsrin kontraktı" bizim üçün bir çıxış yolu idi, bizə bir güc verdi, nəfəs verdi, investisiya gətirdi. Azərbaycan dünyada özünü tanıtdıra bilmişdir. Azərbaycana, ilk növbədə, ölkəmizin neft-qaz sektoruna böyük şirkətlər tərəfindən maraq artmışdır və bu maraq praktiki işlərə gətirib çıxarmışdır.

Mən o illəri yaxşı xatırlayıram. Dövlət Neft Şirkətinin bir qrup rəhbər işçisi 1994-cü ildə danışıqlar aparmaq üçün Amerikanın Hyuston şəhərinə ezam edilmişdi. Orada bir aydan çox danışıqlar aparıldı. Xoşbəxt müəllim o danışıqların çox fəal iştirakçısıdır. Bu danışıqlar nəticəsində sentyabr ayında kontrakt imzalandı. Bu kontrakt o vaxt üçün ən məqbul və əlverişli şərtlərlə imzalanmışdı. Biz bunu elə o vaxt - 1994-cü ildə deyirdik. O vaxt bizdə kontraktın şərtlərini təhlil edə biləcək mütəxəssislər demək olar ki, yox idi. Ancaq biz deyirdik və bilirdik ki, Azərbaycanın maraqları maksimum dərəcədə təmin edildi və bugünkü reallıq onu göstərir.

Bu gün bu kontrakt qüvvədədir. Kontrakt nəticəsində Azərbaycana milyardlarla dollar sərmayə qoyulubdur. Kontraktın icrası nəticəsində minlərlə, on minlərlə Azərbaycan mütəxəssisi təlim alıb, təhsil alıb və bu gün konsorsiumun işçilərinin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Kontrakt nəticəsində Azərbaycanda böyük infrastruktur layihələri, böyük tikinti işləri icra edilib və ölkə iqtisadiyyatı milyardlarla, on milyardlarla dollar gəlir gətiribdir.

1994-cü il Azərbaycanın neft sənayesində dönüş nöqtəsi idi, "Əsrin kontraktı"nın tarixi əhəmiyyəti artıq həyatda özünü sübut etdi və eyni zamanda, bu, bir yol açdı. Göstərdi ki, gənc müstəqil dövlət olan Azərbaycan xarici tərəfdaşlarla düzgün iş qura, öz milli maraqlarını müdafiə edə bilər.

Beləliklə, bizə olan maraq artdı, maraq artdıqca ölkəmizə sərmayə qoyuluşu da artmağa başladı. Bir çox kontraktlar imzalanmışdır, mən onların arasında "Şahdəniz" kontraktını xüsusilə qeyd etməliyəm. 1996-cı ildə imzalanmış bu kontrakt indi Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Neftçilər yaxşı bilirlər ki, o vaxt prinsipcə qaz yataqlarına dünyada o qədər də böyük maraq göstərilmirdi. Çünki bu, aşağıgəlirli sahə hesab olunurdu və o vaxt enerji təhlükəsizliyi haqqında, ümumiyyətlə, söhbət aparılmırdı. "Şahdəniz" yatağının müxtəlif parametrləri təhlil edilərkən bir sıra mütəxəssislər bəzən belə qənaətə gəlirdilər ki, bu, iqtisadi cəhətdən o qədər də çox cəlbedici layihə deyil. Ancaq həyat onu göstərdi ki, bu, iqtisadi cəhətdən çox cəlbedici layihədir və bu layihə ölkəmizin iqtisadi, siyasi potensialının güclənməsində çox müsbət rol oyanmışdır.

Bu gün Azərbaycan dünyada neft və qaz hasil edən ölkə kimi tanınır. Bizim dünyadakı rolumuz, gücümüz artır və bunun təməlində Heydər Əliyev neft strategiyası dayanır. 1990-cı illərdə neft sənayesi ilə bağlı bir çox tarixi hadisələr baş verdi. Mən xüsusilə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsini qeyd etməliyəm. Ulu öndər Heydər Əliyev öz əlləri ilə bu kəmərin təməlini qoydu və 2006-cı ildə biz bu kəməri istifadəyə verdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə düşdü ki, bu gün bizim qaz ixracımızın əsas infrastruktur layihəsidir və bu kəmər əsasında bu gün Cənubi Qafqaz, Cənub Qaz Dəhlizi layihələri icra edilir. 1990-cı illərdə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərlərinin biri təmir olundu, digəri yenidən tikildi. Yəni, o vaxt neft infrastrukturunun əsası qoyuldu və 2000-ci illərdə də bu proses davam etdirildi.





Hazırda Bakıda ən müasir qazma qurğuları, platformalar inşa edilir. "Şahdəniz-2" üçün bütün tikinti işləri Azərbaycanda icra edilmişdir. Azərbaycanın minlərlə, bəlkə də on minlərlə vətəndaşı bu işlərə cəlb edilmişdir. Dünyanın ən böyük neft-qaz terminalı - Səngəçal terminalı da bizim böyük sərvətimizdir. Neft əməliyyatlarının aparılması üçün bizim gəmiqayırma zavodumuzda istənilən növ gəmilər istehsal olunur. Onlardan biri, - bu nəhəng gəmiyə "Xankəndi" adını vermişik, - bu yaxınlarda istifadəyə veriləcək.

**Ardı Səh. 4**

# Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*






**Əvvəli-Səh-3**

Bir sözlə, bu gün "Əsrin kontraktı"nın nəticələri sadəcə olaraq Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz "qara qızıl"ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün bizim müstəqil ölkə kimi yaşamağımızda, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır. Bunu hər kəs bilməlidir.

Azərbaycanın timsalında, eyni zamanda, göstərilir ki, dövlət və xarici sərmayədarlar birlikdə necə iş qurmalıdırlar? Bu iş hansı prinsiplər əsasında qurulmalıdır? Burada da Azərbaycan bir nümunədir. Çünki biz tərəfdaşlarımızla, xüsusilə əsas strateji investor olan BP şirkəti ilə çox sağlam zəmində, qarşılıqlı dəstək, qarşılıqlı inam, qarşılıqlı maraqlar əsasında əməkdaşlıq qurmuşuq. Həm investorlar, Azərbaycana milyard dollarlarla vəsait qoyan konsorsiumlar, həm də Azərbaycan dövləti böyük gəlir əldə edir. Burada hər iki tərəf fayda götürür və uğurlu əməkdaşlığın təməlində məhz bu, dayanır.

Mən bu gün BP şirkətinin Azərbaycandakı fəaliyyətini xüsusilə qeyd etmək istərdim. İyirmi üç ildir ki, BP bizim tərəfdaşımızdır və aparıcı layihələrimizdə bizimlə bərabər çox fəal rol oynayır. Demək istəyirəm ki, bütövlükdə çıxarılmış 2 milyard ton neftin təxminən 700 milyon tonu müstəqillik dövründə, onun 460 milyon tonu isə konsorsium tərəfindən hasil edilib. Ona görə, qoy, bizim ictimaiyyət bir daha bilsin ki, xarici tərəfdaşlar, xüsusilə BP şirkəti Azərbaycanın inkişafında, Azərbaycanın iqtisadi potensialının güclənməsində nə qədər böyük rol oynamışdır. Bir daha demək istəyirəm ki, bunun da təməlində dövlətlə xarici tərəfdaşlar arasındakı əməkdaşlıq dayanır.

BP-SOCAR əməkdaşlığı bu gün bir çox ölkələr üçün nümunədir. "Əsrin kontraktı", "Şahdəniz" yatağı üzrə imzalanmış və icra edilən kontrakt, eyni zamanda, Dövlət Neft Şirkətini böyük beynəlxalq şirkətə çevirib. Yəni, bir neçə il bundan əvvəl mənim tərəfimdən qarşıya məqsəd qoyulmuşdur ki, SOCAR böyük beynəlxalq neft şirkətinə çevrilməlidir. Biz bu məqsədlə SOCAR-ın fəaliyyətini genişləndirdik, bir çox müəssisələr SOCAR-a verildi. Bu gün həm ölkə daxilində, həm xaricdə Azərbaycan Dövlət Neft Şirkətinin çox böyük fəaliyyəti var. Bizim xaricə qoyduğumuz investisiyalar milyard dollarla ölçülür. Təkcə Türkiyədəki layihələrə 20 milyard dollara yaxın sərmayə qoyulması nəzərdə tutulub ki, onun təxminən yarısı artıq yatırılıb. Digər ölkələrdə, Avropa ölkələrində, yaxın qonşuluqda SOCAR-ın çox böyük işləri, sərmayəsi var. Azərbaycan dövləti SOCAR-ın fəaliyyətini dəstəkləyir. Bu, bizim iqtisadi gücümüzü artırır, bizə gələcəkdə yeni mənbələrdən böyük həcmdə valyuta axını da təmin ediləcəkdir. Mən hazırda ölkə daxilində icra edilən iki layihəni - SOCAR polimer və karbamid zavodlarının tikintisini qeyd etmək istərdim. Bu iki layihənin ölkəmizin qeyri-neft sektorunun inkişafında çox böyük əhəmiyyəti var. Hər iki layihə qrafik üzrə icra edilir və əminəm ki, gələn il istifadəyə veriləcək.

Beləliklə, Heydər Əliyev neft strategiyası bu gün yeni istiqamətlərlə zənginləşdirilmişdir. Bu strategiya bu gün Azərbaycanın ümumi inkişafına çox böyük dəstək verir. Hazırda biz yeni layihələr üzərində işləyirik. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi uğurla icra edilir. Bu da dünya miqyasında nəhəng layihədir. Sərmayə qoyuluşu 40 milyard dollara bərabərdir və bütün işlər qrafik üzrə gedir. "Şahdəniz-2" və Cənubi Qafqaz kəməri demək olar ki, 100 faiz, TANAP 80 faizdən çox icra edilibdir. Beləliklə, biz "Cənub Qaz Dəhlizi" layihəsini də uğurla icra edirik, əminəm ki, tam icra edəcəyik.

Bu il "Əsrin kontraktı"nın uzadılması ilə bağlı yeni saziş imzalanmışdır. Bu da tarixi hadisədir. 2050-ci ilə qədər daha yaxşı şərtlərlə kontrakt imzalanıb. Bu kontraktın icrası nəticəsində Azərbaycana 3,6 milyard dollar sadəcə olaraq bonus şəklində veriləcəkdir. Dövlət Neft Şirkətinin payı 11 faizdən 25 faizə qaldırılıbdır. SOCAR, eyni zamanda, operator funksiyasını daşıyacaq və mənfəət neftinin 75 faizi 2050-ci ilə qədər, yəni, kontraktın bütün müddəti ərzində Azərbaycana qalacaq.

Bu, bir daha onu göstərir ki, bizim çox böyük və zəngin təbii resurslarımız var. Yaxşı yadımdadır ki, biz Bakı-Tbilisi-Ceyhan neft kəmərini inşa edərkən o vaxt işimizə maneçilik törətmək istəyən qüvvələr var idi. Bizə qarşı kampaniyalar, şər-böhtan kampaniyası aparılırdı. Ortaya süni bir ekoloji mövzu qoyulmuşdu ki, guya burada ekologiya pozulacaq. Halbuki, baxın, bu gün Bakının vaxtilə çirklənmiş yerlərində biz parklar saldıq, cənnət yaratdıq. Elə Bibiheybət yatağının - ən qədim neft yatağının əvvəlki görüntüləri necə idi, indiki görüntüləri necədir. Əvvəlki görüntülər bir fəlakət mənzərəsi idi. Bu gün isə bu, Bakının ən gözəl parklarından biridir. Yəni, biz ekoloji vəziyyətin yaxşılaşdırılmasına da çox böyük vəsait qoyuruq. Amma o vaxt bunu bəhanə gətirərək istədilər işimizi əngəlləsinlər.

İkinci bir mövzu neft ehtiyatları ilə bağlı idi. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, Bakı-Tbilisi-Ceyhan kəmərini tikmək lazım deyil, bu, heç vaxt özünü doğrultmayacaq. Bax, biz artıq 1997-ci ildən başlayaraq konsorsiumla birlikdə 20 il ərzində nefti hasil edirik. Qeyd etdiyim kimi, konsorsium ancaq "Azəri-Çıraq-Günəşli"dən 460 milyon ton neft hasil edib. Lakin bundan da çox təsdiqlənmiş ehtiyat var. Kontraktın 2050-ci ilə qədər uzadılması onu göstərir ki, bizim kifayət qədər neftimiz var, qoy, heç kim narahat olmasın. Eyni mövzunu qazla bağlamaq istəyirdilər, yenə də bədxahlar, bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda qaz yoxdur. Ancaq bu gün "Şahdəniz-2" layihəsi reallıqdır. Qeyd etməliyəm ki, bizim təsdiq edilmiş, dəqiqləşdirilmiş neft ehtiyatlarımız 1,5 milyard tondur, proqnoz isə 2 milyard tondur. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir, proqnoz təqribən 3-4 trilyon kubmetrə bərabərdir. "Azəri-Çıraq" yatağının işlənilməsi onu göstərir ki, biz həmişə çox konservativ rəqəmlər ortaya qoyuruq. Mən yaxşı xatırlayıram ki, 1994-cü ildə kontrakt imzalananda "Azəri-Çıraq-Günəşli" yataqlarının ehtiyatları 511 milyon tona bərabər səviyyədə hesablanmışdı. Hətta mən o vaxt Dövlət Neft Şirkətində gənc bir işçi kimi təəccüb edirdim ki, bunu necə dəqiqliklə hesablaya bilərlər - 511. Niyə 510 yox, 512 yox, 511? Əlbəttə ki, bu, bir şərti rəqəm idi.

*Ardı Səh. 5*

# Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*








Əvvəli-Səh-4

Ancaq bugünkü hesablamalar onu göstərir ki, yataqların ehtiyatı minimum ən azı iki dəfədən çoxdur. Çünki o 511 şərti rəqəminin 462-si artıq çıxarılıb. 2050-ci ilə qədər də, görün, nə qədər neft olacaq?

Ona görə əminəm ki, bizim proqnozlarımız həyatda öz təsdiqini tapacaq. Çünki mövcud ehtiyatların qiymətləndirilməsini biz çox konservativ şəkildə aparırıq. "Azəri-Çıraq-Günəşli" yatağı minimum 2050-ci ilə qədər işləyəcək. "Şahdəniz" yatağı əminəm ki, minimum 100 il bundan sonra fəaliyyət göstərəcək. Hazırda biz Abşeron yatağından yaxın gələcəkdə qaz hasilatını gözləyirik. "Ümid", "Babək" yataqlarının çox böyük perspektivləri var. Gələn ildən Dövlət Neft Şirkəti bu yataqlarda da çox fəal iş aparacaqdır. Müəyyən işlər aparılır. Daha da böyük həcmdə işlər aparılacaqdır.

Bizim maliyyə vəziyyətimiz çox sabitdir, çox müsbətdir. Heç bir problemimiz yoxdur. Bu məsələdə də bədhaqlar bizi gözdən salmağa çalışırlar ki, guya Azərbaycanın maliyyə vəziyyəti yaxşı deyil. Bizim maliyyə vəziyyətimiz bir çox ölkələr üçün nümunə ola bilər. Biz ancaq bu ilin doqquz ayında valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. İlin sonunadək hələ nə qədər artacaqdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edir. Bu, bir çox ölkələr üçün arzuolunan, möcüzə kimi səslənən bir rəqəmdir. Bizim iqtisadi uğurlarımızı aparıcı iqtisadi Forum olan Davos qiymətləndirir. Dünya miqyasında 35-ci yerdəyik. Bizim heç bir maliyyə problemimiz, çətinliyimiz yoxdur. Neft sənayesinə gələn il də böyük vəsait ayrılacaq. Əlbəttə, Dövlət Neft Şirkəti özü də pul qazanır. Ancaq dövlət həmişə bu şirkəti dəstəkləyir və dəstəkləməlidir. Çünki bu, bizim strateji aktivimizdir, strateji sərvətimizdir.

Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərini tam şəkildə təmin edib. Biz vaxtilə xaricdən qaz alırdıq, indi xaricə satırıq. Elektrik enerjisi alırdıq, indi onu satırıq. İndi nefti satırıq, neft məhsullarını satırıq. Biz böyük həcmdə qaz satacağıq və ölkəmizə daha çox pul gələcək. Biz bu vəsaitdən də çox səmərəli və şəffaf şəkildə istifadə edirik. Bildiyiniz kimi, neftdən əldə olunan bütün gəlirlər Dövlət Neft Fondunda şəffaf şəkildə saxlanılır. Bu da beynəlxalq auditdən keçən, dünyanın ən şəffaf neft fondlarından biridir. Biz o vəsaiti ölkə üçün vacib olan layihələrə ayırırıq. Həm ehtiyatı artırırıq, həm ən vacib sosial və infrastruktur layihələrinə bu vəsaitdən istifadə edirik. Əlbəttə ki, Azərbaycan Milli Məclisi bu xərcləri təsdiq edəndən sonra. Onların arasında köçkünlərin problemlərinin həllidir, - 100-ə yaxın şəhərcik salınıb, - məktəblərdir, infrastruktur layihələridir, əlbəttə ki, neft sənayesinin inkişafı ilə bağlı olan layihələrdir, xüsusilə nəhəng qazma qurğusunun tikintisi də Dövlət Neft Fondunun xətti ilə maliyyələşdirilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu məhz o mənbədən maliyyələşdirilmişdir.

Biz bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını qeyd etdik. Bu, böyük tarixi nailiyyətdir. Bu dəmir yolunun istifadəyə verilməsi Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətdir. Biz bunu bu gün də bilirik, bunu gələcəkdə də hər kəs daha çox görəcək və hiss edəcək. Bunun da maliyyə mənbəyi haradan gəlib? Dövlət Neft Fondundan. Dövlət Neft Fonduna haradan gəlib? Neftçilərin zəhməti hesabına. Əgər Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum tikilməsə idi, o dəhliz açılmasa idi, vəsaitimiz olmasa idi biz bunu necə tikə bilərdik? Mən prezident vəzifəsinə seçiləndən demək olar ki, dərhal sonra bu layihə ilə məşğul olmağa başlamışam. Görürdüm ki, burada böyük çətinliklər var. İlk növbədə, maliyyə çətinliyi və texniki məsələlərin həlli. Çünki ölkələr arasında bir çox razılaşmalar əldə olunmalı idi. O vaxt biz bunu həll etdik. Bu layihə ilə bağlı siyasi əngəllər törədilməyə başlandı. Əgər maliyyə imkanlarımız olmasa idi, biz Bakı-Tbilisi-Qarsı hansı pulla tikə bilərdik? Çünki bu yolun böyük hissəsi Azərbaycan ərazisindən keçir - 504 kilometr. Gürcüstan ərazisindən 200 kilometrdən çox hissəsi keçir ki, orada da maliyyə və texniki məsələləri Azərbaycan həll edir. Yolun uzunluğu təxminən 850 kilometrə yaxındır. Yəni, ancaq səmərəli fəaliyyət nəticəsində, şəffaf Neft Fondunda saxlanılan vəsait hesabına və neftçilərin zəhməti sayəsində biz buna nail ola bilmişik.

Biz bu gün iqtisadi müstəqilliyi təmin etmişik. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır. Əgər biz kimdənsə asılı olsaq, heç vaxt müstəqil siyasət apara bilmərik, heç vaxt öz prinsipial mövqeyimizi indiki qədər ifadə edə bilmərik. İqtisadi müstəqillik siyasi müstəqilliyə gətirib çıxardı ki, bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan nadir ölkələrdən biridir. İqtisadi müstəqillik isə neftçilərin zəhməti hesabına təmin edilir. Ona görə hər kəs bilməlidir ki, hələ uzun illər bundan sonra ölkəmizin neft-qaz sektoru bizim üçün əsas dayaq olacaqdır. Ona görə Azərbaycan dövləti və neftçilər bundan sonra da bütün səylərini qoymalıdırlar ki, biz bu sektoru inkişaf etdirək.

Bir milyardıncı ton neftin hasil edilməsi münasibətilə 1971-ci ildə Heydər Əliyevin sədrliyi ilə Opera və Balet Teatrında təntənəli mərasim keçirilmişdir. Bu gün müstəqil Azərbaycanda, Ulu Öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə biz 2 milyardıncı ton neftin hasilatını qeyd edirik. Müstəqillik ən böyük sərvətimizdir. Ancaq müstəqillik dövründə Azərbaycan böyük zirvələrə çata bildi. Ancaq müstəqillik dövründə xalq öz təbii sərvətlərinin sahibi oldu. Hesab edirəm ki, bugünkü mərasimin Ulu Öndərin adını daşıyan Mərkəzdə keçirilməsi həm təbiidir, - çünki bu, bizim əsas toplantı salonumuzdur, əsas mərkəzimizdir, - həm də rəmzi xarakter daşıyır. Çünki Heydər Əliyevin həm 1970-1980-ci illərdə, həm də 1990-cı illərdə göstərdiyi xidmətlər bu gün Azərbaycan reallıqlarını təmin edir. Biz isə öz növbəmizdə bundan sonra da Azərbaycanın neft-qaz sənayesinin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Əziz dostlar, mən bir daha sizi bu tarixi hadisə münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan neftçilərinə eşq olsun!

x x x

Daha sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "28 May" Neft-Qaz Çıxarma İdarəsinin 10 saylı özülünün rəisi Qədim Əliyev, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Counz və Bakı Ali Neft Məktəbinin birinci kurs tələbəsi Mahirə Əsədova çıxış edərək bildiriblər ki, bu gün Vətənimizin qədim neft tarixinə yeni və şanlı bir səhifə yazılır. İki milyardıncı ton Azərbaycan neftinin hasil edilməsi neft sənayesinin inkişafında növbəti zirvə nöqtəsi, yaddaşlarda uzun müddət yaşayacaq şərəfli bir hadisədir. Qeyd olunub ki, bu şanlı nailiyyət, ilk növbədə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Zati-alinizin müdrik rəhbərliyi altında uğurla davam etdirilən enerji strategiyamızın zəfər təntənəsidir. Sonra SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış etdi. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Xoşbəxt Yusifzadə birinci dərəcəli "Əmək" ordeni ilə təltif olundu.

Dövlətimizin başçısı ordeni Xoşbəxt Yusifzadəyə təqdim etdi. Sonda Azərbaycanın neft sənayesinin tarixinə həsr edilən videoçarx nümayiş olundu.

# "Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir"

## Prezident İlham Əliyev şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı***





-Azərbaycan növbəti böyük uğura imza atıb. Bu dəfə idmanın şahmat növündə, intellektual idman növündə qazanılmış qələbə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan komandası Avropa çempionatında birinci yer tutub və çempion olub. Bu möhtəşəm qələbə münasibətilə şahmatçıları, məşqçiləri, federasiyanı ürəkdən təbrik edirəm.

Bu, bütün Azərbaycan xalqını sevindirən qələbədir. Şadam ki, bu, artıq birinci qələbə deyil, bu, üçüncü qələbədir. Yəni, üç dəfə Azərbaycan şahmatçıları Avropada birinci yeri tutublar. Bu, onu göstərir ki, budəfəki qələbə də təsadüfi qələbə deyil, bu, təbii qələbədir. Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir. Gərgin mübarizədə bizim şahmatçılarımız Azərbaycan xalqının intellektual potensialını bütün Avropaya və eyni zamanda, dünyaya bir daha nümayiş etdirdilər. Mən sizi dəvət etdim ki, bu qələbə münasibətilə sizi şəxsən təbrik edim. Bilirəm ki, siz bu gecə Bakıya böyük qələbə ilə, kuboklarla qayıtmısınız və bütün Azərbaycan xalqını sevindirmisiniz.

Şahmatın Azərbaycanda inkişafı çox sürətlə gedir. Bilirsiniz ki, bölgələrdə müasir şahmat məktəbləri, şahmat evləri yaradılır. Biz vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənəni bərpa etmişik. O vaxt - 1980-ci illərdə demək olar ki, bütün bölgələrimizdə müasir şahmat məktəbləri açılmışdır. Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində onların bir çoxu bağlanmış, yaxud da ki, təyinatı dəyişilmişdir, özəlləşdirməyə açılmışdır. İndi onların bir çoxunda digər obyektlər yerləşir. Biz isə bütün bölgələrdə yeni şahmat evlərinin, məktəblərinin tikintisi ilə bağlı çox ardıcıl iş aparırıq. Bölgələrdə yerləşən şahmat evlərinin bir çoxunun açılışında mən şəxsən iştirak etmişəm. Əlbəttə ki, Bakıda böyük şahmat mərkəzinin yaradılması gündəlikdə duran vacib məsələlərdən biridir. Əminəm ki, biz yaxın gələcəkdə bunu da edəcəyik.

Eyni zamanda, Azərbaycanda beynəlxalq yarışlar mütəmadi qaydada keçirilir. Vüqar Həşimovun adını daşıyan beynəlxalq turnir artıq dünya miqyasında çox mötəbər bir yarış kimi qiymətləndirilir. Əlbəttə ki, dünyanın aparıcı şahmatçılarının bu turnirdə iştirakı bunun səviyyəsini göstərir. Biz hamımızın iştirak etdiyimiz Ümumdünya Şahmat Olimpiadasını da xatırlayırıq. Bu da çox möhtəşəm idman yarışı idi. Demək olar, Yay Olimpiya Oyunlarından sonra ölkələrin sayına görə bəlkə də ikinci bir tədbir idi ki, yüksək səviyyədə keçirilmişdir. Azərbaycanda belə bir tədbirin keçirilməsi əlbəttə ki, bizim şahmat sahəsində əldə etdiyimiz uğurların təzahürüdür.

Bu dəfə isə Azərbaycan komandası bir daha bizi sevindirdi. Komandamızın iştirakçıları, onların hamısı gənclərdir, gənc nəsildir, müstəqillik dövründə yetişmiş şahmatçılardır. Bu qələbə doğrudan da həm müstəqilliyimizin uğurlu inkişafını və həm də ölkəmizin intellektual səviyyəsini göstərir. Azərbaycan Olimpiya Oyunlarında, Avropa və İslam Həmrəyliyi Oyunlarında artıq dünyada sübut edib ki, böyük idman dövlətidir. Biz Bakıda keçirilmiş Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldük. Yay Olimpiya Oyunlarında isə medalların sayına görə biz dünya miqyasında 14-cü yerdəyik. Bu, tarixi nailiyyətdir, tarixi qələbədir. Bu qələbə - şahmat sahəsində əldə edilmiş qələbə onu göstərir ki, xalqımızın, eyni zamanda, çox güclü intellektual potensialı var. Bu, əlbəttə ki, ölkəmizi və xalqımızı fərqləndirən amillərdən biridir. Həm döyüş idman növlərində, eyni zamanda, komanda idman növlərində də uğurlarımız var. İntellektual idman növündə - şahmatda bu qələbə doğrudan da bizim hamımızı çox sevindirir.

Mən xarici mətbuatı da izləmişəm. Bilirəm ki, bu qələbə xarici mətbuatda çox geniş işıqlandırılmışdır. Avropa qitəsində şahmat sahəsində birinci olmaq, özü də üçüncü dəfə birinci olmaq doğrudan da böyük tarixi qələbədir.

Mən sizi dəvət etdim ki, şəxsən sizi təbrik edim. Əvvəlki illərdə bizim görüşlərimiz çox olmuşdur. Siz bu binada dəfələrlə olmusunuz. Sizin Ulu Öndərlə şəkliniz bütün bölgələrdə şahmat evlərinin divarında asılıbdır və bu, gənc uşaqlar üçün də bir nümunədir. Mən də bölgələrdə o şahmat məktəblərinin açılışında uşaqlarla görüş əsnasında həmişə deyirəm ki, siz də bizim tanınmış şahmatçılar kimi olmalısınız, dünya miqyasında qələbə qazanmalısınız, xalqımızı sevindirməlisiniz və Azərbaycanı təbliğ etməlisiniz. Sizin indiki qələbəniz də əminəm ki, şahmatın Azərbaycanda populyarlaşmasında öz müsbət rolunu oynayacaq, şahmat bölmələrinə axın daha da güclənəcək. Bu, sizin ümumi qələbənizdir. Sizi təbrik edirəm, sizə yeni uğurlar və qələbələr arzulayıram.

X X X

**Azərbaycan Şahmat Federasiyasının birinci vitse-prezidenti, beynəlxalq hakim Faiq Həsənov:**

-Möhtərəm cənab Prezident, ilk növbədə, mən Sizə komanda adından minnətdarlığımı bildirirəm ki, vaxt edib qəbul edirsiniz. Biz Sizinlə üçüncü dəfə görüşürük. Bugünkü görüş çox xoş görüşdür, sevinc görüşüdür. Mən başqa bir cəhətdən Sizə bir daha minnətdarlığımı bildirirəm. Sizə "Sağ olun" demək istəyirəm ki, biz orada olarkən respublikanın bütün ictimai həyatı ilə təmasda idik, baxırdıq ki, ölkəmizdə nə keçirilir. Əsrin layihəsini - Bakı-Tbilisi-Qars dəmir yolunu Siz açdınız, izləyirdik. Bu münasibətlə mən Sizi təbrik etmək istəyirəm. Bu, xalqımız üçün tarixi bir hadisədir. Ona görə ki, dəmir İpək Yolunun açılması, əlbəttə, Azərbaycanı Avropaya bağlayır. Gələcəkdə biz də həmin yolun sərnişin qatarından istifadə edəcəyik. Həm də belə bir təklif oldu, uşaqlar təklif etdilər ki, ilk sərnişin qatarı hərəkətə başlayanda biz dünyanın güclü şahmatçılarını çağıraq və bu qatarda bir turnir təşkil edək və bu, bir hadisə olsun. Bu turniri ən güclü şahmatçılarla, bizim Türkiyə və Gürcüstan şahmatçıları ilə bir yerdə keçirək.

Ardı Səh. 7

# "Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir"

## *Prezident İlham Əliyev şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul edib*



**Əvvəli-Səh-6**

Bu il bizim komanda, əlbəttə, çox güclü idi. Bizim hamımızın məqsədi yalnız o idi ki, birinci yerə çıxaq. Mən bir məqamı da Sizin diqqətinizə çatdırmaq istəyirəm ki, biz orada "Qarabağ"ın Madriddə "Atletiko" ilə oyununa kompüter vasitəsilə baxırdıq. Bizim şahmatçıların hamısı futbol həvəskarıdır. Hər şahmatçının sevimli komandası var. Amma "Qarabağ" oynayanda, aydın məsələdir, hamımız "Qarabağ"a baxır və azarkeşlik edirdik. "Qarabağ" oyunu gözəl nəticə ilə başa çatdırandan sonra ertəsi gün biz Ermənistan komandası ilə oynayırdıq. Belə ruh yüksəkliyindən sonra hamı dedi ki, "Qarabağ" belə oynayıbsa, Ermənistanla oyunda bizim ayrı yolumuz yoxdur. Biz gərək yalnız qələbə çalaq. Bu, doğrudan da belə oldu. Bundan sonra uşaqlar özləri də dedilər ki, artıq biz qızıl medala yol açdıq. Faiq Həsənov bildirdi ki, bu qələbədə bütün qrossmeysterlərimizin böyük rolu var. O vurğuladı ki, Azərbaycan komandasının üzvləri Beynəlxalq Şahmat Federasiyasının reytinq siyahısında 2700 və daha çox əmsalı olan şahmatçılar sırasındadırlar. Faiq Həsənov qeyd etdi ki, şahmatçılarımız Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov Beynəlxalq Şahmat Federasiyasının il ərzində ən güclü şahmatçılar arasında keçirdiyi Qran-Pri turnirində ilk üçlüyə düşüblər və onların mükafat qazanmaq imkanları çox yüksəkdir. 2017-ci ildə şahmat yarışlarında əldə edilən qələbələrdən danışan federasiyanın vitse-prezidenti bildirdi ki, gənc şahmatçılarımız bu il keçirilən Avropa çempionatında iki qızıl, iki gümüş, bir bürünc medal qazanaraq komanda hesabında ikinci olublar. Bundan başqa, SOCAR-ın klubu olan "Odlar Yurdu" da bu il Avropa çempionatının mükafatçılarındandır. İdmançılara, o cümlədən şahmatçılara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirən Faiq Həsənov son illərdə respublikamızın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da idmanın bu növünün inkişaf etdiyini vurğuladı. O, Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə keçirilməsinin bütün dünyada böyük məmnunluqla qarşılandığını dedi.

X X X

**Daha sonra Milli komandanın üzvü Şəhriyar Məmmədyarov çıxış edib:**

-Cənab Prezident, diqqətinizə görə çox sağ olun.

Biz burada əyləşəndə xatırlayır və deyirik ki, hələ yeniyetmə olanda bizim əldə etdiyimiz nəticələrə Siz həmişə diqqət göstərmisiniz. Bəlkə də başqa ölkələrdə bu cür nəticələrə heç kim diqqət yetirməzdi. Amma Siz hər zaman diqqət göstərmisiniz. Hələ o vaxt inanırdınız ki, biz bu gün Avropanın ən güclüsü və ən yaxşısı olacağıq.

Biz birinci dəfə Avropa çempionu olanda və ölkəmizə qayıdanda komanda yoldaşlarımız özlərini elə göstərirdilər ki, guya bu, bizim üçün normal nəticədir. Həqiqətdə isə biz o nəticəni çox çətinliklə qazanmışdıq. Amma bu gün komanda gedib Avropa çempionu olanda elə bil hamı öyrəşib, elə bil hamı başa düşür ki, Avropanın ən güclü, ən yaxşı komandası gəlir.

Bu gün Azərbaycan şahmatı yəqin ki, tarixinin ən parlaq anlarını yaşayır. Bu gün Azərbaycanda 2700-dən yuxarı əmsalı olan dörd şahmatçı var. Bu gün artıq dünyanın üçlüyündə olmaq, - dünyanın üçlüyünə gəlib çıxmışıq, - dünyanın birinci nömrəli şahmatçısı olmaq da mümkündür, bu, çox yaxındır. Dünya çempionluğu uğrunda mübarizədə birinci olmaq, tacı Azərbaycana qaytarmaq - bunlar hamısı artıq sadəcə söz deyil, bu, artıq bir reallıqdır, çox yaxındır. Bunların hamısının, əlbəttə, bir səbəbi var - diqqət və qayğı. Yəni, biz Sizin diqqətinizi hər zaman hiss edirik. Bakıda keçirilən Olimpiadalara, ümumiyyətlə, hər il Azərbaycanda keçirilən turnirlərə göstərilən ən böyük dəstəyə, diqqətə və qayğıya görə şahmatçılarımız adından, həmçinin Qran-Pri yarışına görə bu görüşə gələ bilməyən Teymur Rəcəbovun, Arkadi Naydiçin adından Sizə dərin təşəkkürümüzü bildiririk. Biz bir komandayıq, məğlub olanda hamımız məğlub oluruq, heç bir oyunçunu ayırmırıq. Biz bir dost komanda kimi hər yerdə göstərmişik ki, Azərbaycan həm dostluğu, həm uğur qazanmağı bacaran, zəkalı insanları olan intellektlər diyarıdır.

Bizim üçün yaradılan şəraitə görə çox sağ olun. Bizə göstərdiyiniz diqqət və qayğıya - 20 il bundan əvvəl başlayan diqqət və qayğınıza görə bu gün Sizə səmimi qəlbdən "Çox sağ olun" deyirik. Təşəkkür edirik, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Bir daha sizi təbrik edirəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, böyük qələbədir. Bu qələbə Azərbaycan intellektinin, Azərbaycan zəkasının təntənəsidir. Bu qələbəni, qələbə sevincini Azərbaycan xalqına siz bəxş etmisiniz. Sizə yeni uğurlar və yeni qələbələr arzulayıram. Sağ olun.

X X X

Sonra şahmat üzrə komandamızın indiyədək Avropa çempionatlarında qazandığı kuboklar dövlətimizin başçısına təqdim olundu. Sonda xatirə şəkli çəkdirildi.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Kambocanın Kralı Norodom Sihamoniyə təbrik məktubu göndərib.

* * *

Prezident İlham Əliyev Azərbaycan şahmatçılarının Avropa komanda çempionatında qalib olması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Bakı Metropoliteninin 50 illik yubileyinə həsr olunmuş mərasim iştirakçılarına müraciət ünvanlayıb. Trend-in məlumatına görə, məktubu dövlət başçısının iqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Əsədov oxuyub. Müraciətdə deyilir: "Hörmətli mərasim iştirakçıları! Sizi Bakı Metropoliteninin 50 illik yubileyi münasibətilə səmimi qəlbdən salamlayır, hər birinizə cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Azərbaycan paytaxtında yeraltı nəqliyyatın yaradılması ideyası hələ 1930-cu illərin əvvəllərində şəhərin perspektiv inkişafı üzrə baş planı işləndiyi vaxt meydana çıxıb. İkinci Dünya müharibəsinin başlaması həmin planın, eləcə də metro tikintisi ideyasının gerçəkləşdirilməsinə imkan vermədi. Sonrakı dövrdə qarşıya çıxan ən müxtəlif çətinliklərə baxmayaraq, metro inşaatçılarının böyük zəhməti bahasına 1967-ci ilin noyabr ayında Bakı Metropoliteninin birinci növbəsi işə salındı ki, bu da Azərbaycanın həyatında baş vermiş mühüm və əlamətdar hadisə idi. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik edərkən məhz onun diqqət və qayğısı sayəsində Bakı Metropolitenində tikinti işlərinin sürəti intensivləşdirildi, yeni xətlər istismara verildi, yaşayış massivlərinin Bakının mərkəzi ilə nəqliyyat əlaqəsi xeyli yaxşılaşdırıldı.

Ötən yarım əsrdə Bakı şəhərinin infrastrukturunda və əhalinin ictimai nəqliyyatla təminatında metropolitenin fəaliyyətinin nəticəsi olaraq köklü dəyişikliklər baş verib, onun ümumşəhər sərnişindaşımalarında payı davamlı olaraq artıb. Metropolitenin istismarı sahəsində irimiqyaslı işlər aparılıb və müasir avadanlıqlarla təchiz edilən maddi-texniki bazası təkmilləşdirilib. Dövrün tələblərinə uyğun texnologiyaların tətbiqi, yeni standartlara keçidin başlıca meyar olması və insan resurslarının lazımınca dəyərləndirilməsi bu gün Bakı metrosunun inkişafında keyfiyyətcə yeni mərhələyə keçidi təmin edib. Metro stansiyalarının tərtibat baxımından milli memarlıq sənətinin ornamentlərlə zəngin nümunələrinə çevrilməsi xüsusilə sevindiricidir. Perspektivdə metro şəbəkəsi genişləndiriləcək və inkişaf etdiriləcək. Metropoliten müasir tələblərə müvafiq sürətdə yenidən qurulacaq və sərnişinlərin təhlükəsizlik səviyyəsi daha da yüksələcək. İnanıram ki, "Bakı Metropoliteni" QSC-nin texniki hazırlığa malik peşəkar kollektivi bundan sonra da özünün iş ahəngini qoruyub saxlayacaq, əzmlə çalışacaq və üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bacarıq və qüvvəsini əsirgəməyəcək".

# Əli Həsənov: "Türkiyədə Heydər Əliyevə olan məhəbbət bələdiyyələrin fəaliyyətində də özünü büruzə verir"





Noyabrın 8-də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Çukurova Bələdiyyələr Birliyinin bələdiyyə rəhbərlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Əli Həsənov Azərbaycanın və Türkiyənin ortaq milli mənəvi dəyərlərə, tarixi köklərə malik iki qardaş dövlət olduğunu vurğulayıb. Qeyd edib ki, Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" ifadəsi Azərbaycan-Türkiyə münasibətlərinin fəlsəfəsini müəyyən edən fikirlərdir. Müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələr daha da güclənib və strateji müttəfiqlik səviyyəsinə yüksəlib.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Azərbaycan və Türkiyə arasında qarşılıqlı etimad əlaqələrinin daha da inkişaf etdirilməsində Türkiyənin müvafiq dövlət qurumları və yerli özünüidarəetmə orqanları ilə ölkəmizin yerli icra orqanları arasında əməkdaşlıq böyük əhəmiyyətə malikdir. Bu mənada qarşılıqlı səfərlərin təşkili olduqca vacibdir.

Azərbaycanın Türkiyədəki diaspor təşkilatlarının səmərəli fəaliyyətində yerli bələdiyyələrin dəstəyini xüsusi qeyd edən Əli Həsənov mütəmadi qaydada keçirilən sərgilərin, konsert proqramlarının, elmi-praktiki konfransların və digər tədbirlərin Azərbaycanda da böyük həvəslə izlənildiyini diqqətə çatdırıb. Bildirilib ki, Türkiyədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə olan məhəbbət və böyük hörmət hissi bələdiyyələrin fəaliyyətində də özünü büruzə verir. Adana vilayətinin Ceyhan şəhərində Heydər Əliyev adına park və abidə kompleksinin yaradılması, mövcud parklardan birinə Ümummilli Liderin adının verilməsi ilə bağlı Adana Böyükşəhər Bələdiyyəsinin qərar qəbul etməsi, Heydər Əliyev adına Universitetin açılmasının planlaşdırılması, Mersin vilayətinin Tarsus şəhərində və Hatay vilayətinin Payas rayonunda Heydər Əliyev adına park salınması və s. bunu bir daha təsdiqləyir. Bundan başqa, Türkiyə bələdiyyələrinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanla bağlı abidələr ucaldılıb, parklar salınıb, muzeylər yaradılıb və digər işlər görülüb.

Azərbaycanla Türkiyənin müxtəlif şəhərləri arasında qardaşlaşmış şəhərlər münasibətlərinin qurulması yerli özünüidarəetmə sahəsində təcrübə mübadiləsi üçün mühüm əhəmiyyət kəsb edir. Hazırda Gəncə şəhəri ilə İzmir, Qars, Bursa, Ordu, Ankara, Elağız, Eskişehir, Sumqayıt şəhəri ilə Ceyhan, Bakının Xətai rayonu ilə Tarsus, Nəsimi rayonu ilə İzmit, Şəki şəhəri ilə Meram, Mingəçevir şəhəri ilə Gölbaşı, Şamaxı və Şərur şəhərləri ilə İğdır qardaşlaşmış şəhərlərdir.

Azərbaycan və Türkiyənin bələdiyyə orqanları arasındakı münasibətlər müxtəlif konfranslar və sərgilər çərçivəsində də inkişaf edir. Təqdirəlayiq haldır ki, Türkiyə bələdiyyələri bu cür tədbirləri yalnız öz ərazilərində deyil, hətta xarici dövlətlərdə keçirmək təşəbbüsü ilə çıxış edirlər. Prezidentin köməkçisi deyib ki, 1918-ci ildə Azərbaycanda bolşevik-daşnak silahlı birləşmələrinə qarşı döyüşlərdə şəhid olmuş türk əsgərlərinin müxtəlif şəhərlərdəki məzarları üzərində xatirə abidələri yenidən tikilib və yaxud təmir olunub. Hər il sentyabrın 15-də türk əsgərlərinin xatirəsinə ucaldılmış Türk şəhidliyi abidəsi önündə anım mərasimləri keçirilir.

Qeyd edək ki, Çukurova Bələdiyyələr Birliyi Adana, Mersin, Hatay və Osmaniye vilayətlərinin böyükşəhər, diyar, şəhər, qəsəbə, kənd bələdiyyələrinin üzv olduğu regional birlikdir.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub



***Noyabrın 8-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları ölkəmizin yüksək fəxri adlarına layiq görülmələri münasibətilə təbrik edib. Hər il noyabrın 9-nun ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu diqqətə çatdıran Ali Məclisin Sədri dövlət bayrağımızın ucaldılmasının təşəbbüskarlarına ehtiramını bildirib, müstəqilliyimizin möhkəmlənməsində əməyi olanlara təşəkkür edib, təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini Dövlət Bayrağı Günü münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib. Təltif olunanlardan Müzəffər Əsgərov, Əfsər Novruzov, Solmaz Axundova, Cəmşid Abdullayev, Bəhram Gülməmmədov, Ruhiyyə Nəcəfova, Musa Əliyev, Məmməd İsmayılov, Ələkbər Kərimov, Vəli Novruzov, Ramiz Həsənov, Zenfira Allahverdiyeva, Baba Babayev və Yeganə Mustafayeva əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq ediblər. Qeyd olunub ki, Ümummilli Liderimizin siyasi xəttinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarıb. Muxtar respublikada geniş quruculuq işləri aparılır. Sakinlərin rahat yaşaması və işləməsi qayğısına qalınır. Təltif olunanlar bundan sonra da Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq ölkəmizin inkişafında öz töhfələrini əsirgəməyəcəklərinə söz veriblər.

# “Mediada kriminal hadisələrin işıqlandırılması: İctimai maraqlar və peşəkarlıq” mövzusunda “dəyirmi masa” keçirilib

***Noyabrın 8-də Mətbuat Şurasının təşkilatçılığı ilə “Mediada kriminal hadisələrin işıqlandırılması: İctimai maraqlar və peşəkarlıq” mövzusunda “dəyirmi masa” keçirilib. AZƏRTAC xəbər verir ki, “dəyirmi masa”da çıxış edən Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ölkəmizdə medianın hazırkı vəziyyətindən danışıb. O bildirib ki, bəzi kütləvi informasiya vasitələri diqqəti kriminal xəbərlər üzərində cəmləşdirir və həmin xəbəri şişirdirlər. Əgər hər hansı ölkədə kriminal xəbərlər geniş yayılırsa, həmin ölkədə cinayətkarlıq da, cinayətlərin xarakteri də artır, cəmiyyətdə sosial gərginlik çoxalır. Bəzən cinayətkarlar qəhrəman kimi təbliğ edilir ki, bu da cəmiyyətdə mənfi örnək olur. Baş verən hadisələr obyektiv işıqlandırılmalıdır. Cəmiyyət obyektiv informasiya ilə təmin olunmalıdır. Məsələn, bu yaxınlarda məhbusların qaçması faktı ilə bağlı ancaq AZƏRTAC, APA və Trend informasiya agentlikləri yalnız rəsmi məlumatlara əsasən xəbərlər yaydılar.***




Tədbirdə çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev deyib ki, hazırda Azərbaycanda onlarla televiziya, radio, informasiya agentliyi, yüzlərlə qəzet və jurnal, internet informasiya resursu fəaliyyət göstərir. Böyük jurnalist ordusu tam sərbəst şəkildə, heç bir kənar təsir olmadan cəmiyyətimizdə və dünyada baş verən məsələlər barədə məlumat, şərh və təhlillər hazırlayır və vətəndaşların diqqətinə təqdim edir. Ancaq bəzi hallarda KİV-lər, konkret desək, əsasən internet media mövcud rəqabət mühitində dövlət maraqlarını və ictimai maraqları unudur, nəticələri nəzərə almayaraq vətəndaşlarımıza yanlış, hətta zərərli mesajlar verir. Biz zaman-zaman belə hallarla rastlaşırıq. Məsələn, 2014-cü ildə cəbhə bölgəsində atəşkəs rejiminin pozulması ilə əlaqədar medianın həddən artıq sərbəst davranışı KİV-lərin və dövlət orqanlarının mətbuat xidmətlərinin rəhbərlərinin məlum müşavirəsini keçirməyə və Azərbaycan Prezidenti tərəfindən dövlətin informasiya təhlükəsizliyinin daha etibarlı təmin olunması məqsədilə müvafiq qanunvericilik aktının imzalanmasına səbəb oldu.

Prezident Administrasiyasının rəsmisi bildirib ki, son iki həftə həm Azərbaycan, həm regionumuz, həm də dünya miqyasında olduqca əlamətdar və tarixi hadisələrlə yadda qaldı. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, milli maraqlara uyğun siyasət nəticəsində dövlətimiz baş verən hadisələrin mərkəzi fiquru kimi növbəti dəfə öz potensialını nümayiş etdirdi. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi təkcə Azərbaycan və region dövlətləri üçün deyil, qlobal əhəmiyyətli hadisə kimi tarixə düşdü. Azərbaycan, İran və Rusiya prezidentlərinin Tehranda görüşü və əldə olunmuş nəticələr bir daha göstərdi ki, qlobal transmilli layihələrin təşəbbüskarı və onların reallaşmasında lider mövqeyə malik Azərbaycan həm də regionda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının da əsas təşəbbüskarı və aparıcı fiqurudur.

Vüqar Əliyev bildirib ki, bu hadisələr Azərbaycan KİV-ləri tərəfindən geniş işıqlandırıldı, təhlil edildi, onların əhəmiyyəti xüsusi vurğulandı. Ancaq, eyni zamanda, internet media və çox təəssüf ki, bəzi qəzetlər paralel olaraq diqqəti həm də kriminal mövzu üzərində cəmləşdirərək ciddi ictimai maraq kəsb etməyən məsələni qabarıq şəkildə vətəndaşlarımıza təqdim etdi. Üstəlik, kriminal elementlər haqqında təqdim olunan bir sıra materiallar istər cəmiyyətimiz, xüsusilə gənc nəsil üçün zərərli hesab etmək olar. Sual oluna bilər ki, cinayətkarı az qala qəhrəman obrazında təqdim etmək, onun həyatını nümunə kimi göstərmək nə dərəcədə düzgündür?! Gənclərimiz bundan hansı yaxşı nümunəni əxz edə bilərlər?! Ümumiyyətlə, kriminal elementlərlə bağlı hər hansı hadisəni olmazın dərəcədə qabardıb əsas mövzulardan birinə çevirmək kimin maraqlarına xidmət edir?! Təəssüf ki, bəzi informasiya resurslarımız bir gün ərzində mövzu ilə bağlı 10-a yaxın material təqdim edərkən bu suallar haqqında düşünmürlər.

KİV-lərin fəaliyyəti sahəsində rəqabət mühitinin mövcud olduğunu bildirən Vüqar Əliyev deyib ki, öz reytinqini yüksəltmək hər bir media orqanının haqqıdır. Ancaq cinayətkarın həyat tərzini populyarlaşdırmaqla bu reytinqi qazanmaq olarmı?! Bu yanlış və zərərli mesajların cəmiyyət üçün hansı fəsadlar törədəcəyi məsələsi medianı düşündürməməlidirmi?! Bəzi vaxtlarda telekanallarda da xəbər buraxılışları bu və ya digər şəkildə cinayət hadisələri və bu tipli mənfi yüklü məlumatlarla zəngin olur, xəbərin təqdimatında balans pozulur və tamaşaçıya bədbin əhvali-ruhiyyə aşılanır. Bu məsələdə də balans gözlənilməli, xəbər rəngarəngliyi təmin olunmalı, daha çox insanları müsbət əhvala kökləyən məlumatlara üstünlük verilməlidir. Məgər cəmiyyətimizdə yaxşı nümunələr yoxdurmu?! Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş, sərhədlərimizi etibarlı şəkildə qoruyan qəhrəman hərbçilərimiz, cəmiyyətimizin inkişafına layiqli töhfə verən ziyalılarımızı təbliğ etmək olmazmı?!

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, Azərbaycan mediası öz ənənələrinə, prinsiplərinə sadiq qalaraq təkcə reytinq, populyarlıq haqqında düşünməməlidir, öz fəaliyyətində dövlətin və cəmiyyətin maraqlarının müdafiəsi prinsipini daha çox nəzərə almalıdır. Media da cəmiyyətimiz, vətəndaşlarımız, gənclərimiz qarşısında məsuliyyət daşıyır və öz üzərində düşən məsuliyyəti unutmamalıdır.

“Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov deyib ki, mətbuat sensasiya ilə özünə oxucu, telekanallar isə qalmaqalla özünə tamaşaçı yığmağa çalışır. Bu, yanlış yanaşmadır. Kriminal xəbərlərlə maraq yaratmaq daha asandır. Amma kriminal xəbərlərin heç birinin ictimai əhəmiyyəti yoxdur. Bəzən kriminal xəbərlər süni şəkildə sensasiyalaşdırılır. Belə hallara yol verilərkən bu işin həm də mənəvi tərəfi nəzərə alınmalıdır. Bu cür məsələlərdə qınaq da olmalıdır.

“Ədalət” qəzetinin baş redaktoru, deputat Aqil Abbas kriminal xəbərlərin mənfi şərhlərlə verilməsinin maarifçilik baxımından qəbul edilən olduğunu deyib. O, kriminal xəbərlərin ön plana çəkilməsindənsə, problemin kökünün tapılaraq həll olunmasının vacibliyini vurğulayıb. Kriminal xəbəri şişirdib müzakirəyə çevirmək məqsədəuyğun deyil.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, mətbuatda kriminal avtoritetlərin təbliğ edilməsi gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük zərbədir. Mətbuat nümayəndələri ilə yanaşı, sosial şəbəkələrin istifadəçiləri də dövlətin, dövlətçiliyin mövqeyini qorumalıdırlar. Lakin təəssüf ki, bəzən kriminal avtoritetlərin həyatı barədə informasiyalar, hətta onların məzarlarının fotoları da yayılır. Bu da gənc nəslin təlim-tərbiyəsində böyük problemlər yaradır. Hər bir media təmsilçisi, sosial şəbəkə istifadəçisi paylaşdığı material ilə cəmiyyətin sağlam şəkildə inkişaf etməsinə töhfə verməlidir.

“APA Holding”in prezidenti Vüsalə Mahirqızı qeyd edib ki, media kriminal hadisəni elə təqdim edə bilər ki, insanlar ondan nəticə çıxara bilərlər. Medianın fəlsəfəsi hüquqi dövlətin qurulmasında iştirak etməkdir. Kriminal avtoritetlərin öz qayda-qanunları olur. Bu isə medianın fəlsəfəsinə ziddir. Media öz fəlsəfəsinə zidd olan işlə məşğul olmamalıdır. İctimaiyyətin marağında olan xəbərlərə daha maarifləndirici yöndən yanaşmaq lazımdır.

# Azərbaycan şərabları növbəti dəfə Honqkonq şərab və spirtli içkilər sərgisində nümayiş olunacaq

Noyabrın 9-11-də Çin Xalq Respublikasının Honqkonq Xüsusi İnzibati Ərazisində növbəti şərab və spirtli içkilər sərgisi keçiriləcək.




AZƏRTAC xəbər verir ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZROMO), ölkəmizdə şərab istehsalı və ixracı ilə məşğul olan şirkətlərin nümayəndələrinin daxil olduğu ixrac missiyası sərgidə iştirak edəcək. Asiya qitəsində sahə üzrə ən böyük sərgilərindən olan Honqkonq şərab və spirtli içkilər sərgisində “Made in Azerbaijan” brendi ilə istehsal olunan şərablar ölkəmizə aid geniş pavilyonda nümayiş olunacaq.

# Azərbaycan OPEC-i oktyabr ayı üzrə gündəlik neft hasilatı ilə bağlı məlumatlandırıb

Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan ölkələrlə əldə edilən neft hasilatının azaldılmasına dair Vyana sazişi üzrə öhdəliyini oktyabr ayında da yerinə yetirib. Energetika Nazirliyi Azərbaycanın cari ilin oktyabr ayı ərzində gündəlik neft hasilatı ilə bağlı məlumatlarını Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, həmin məlumatlara əsasən, cari ilin oktyabr ayında respublika üzrə gündəlik neft hasilatı 800,6 min barrel olub. Bunun 746,8 min barrelini xam neft, 53,8 min barrelini kondensat təşkil edib. Gündəlik 628 min barrel xam neft, 53,8 min barrel kondensat, 24,3 min barrel isə neft məhsulları ixrac edilib.



# Bakı metropolitençiləri 50 illik yubileyini qeyd edib




Bakı Metropoliteninin istismara verilməsinin 50 ili və 8 noyabr - Metropoliten işçilərinin peşə bayramı günü münasibətilə təntənəli yubiley tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, Bakı Metropoliteninin yubileyi ilə əlaqədar tədbirdə dövlət və hökumət nümayəndələri, Beynəlxalq "Metro" Assosiasiyasının və Beynəlxalq İctimai Nəqliyyat İttifaqının (BİNİ), "Bakı Metropoliteni" QSC ilə əməkdaşlıq edən aparıcı təşkilatların səlahiyyətli nümayəndələri tədbirdə iştirak ediblər.

"Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov Bakı Metropoliteninin 50 illik yubiley təntənəsinə təşrif buyurduqlarına və bayram sevincini bölüşdüklərinə görə qonaqlara minnətdarlığını bildirib. Daha sonra Azərbaycanın dövlət himni səsləndirilib.



İdarə heyətinin sədri metropoliten işçilərinin çətin, eyni zamanda şərəfli əməyinin dövlət başçısı tərəfindən daim yüksək qiymətləndirildiyini qeyd edərək, çıxış üçün sözü Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Əsədova verib. Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubiley iştirakçılarına ünvanlanmış müraciətini səsləndirib. (Məktub qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbir iştirakçıları Bakı Metropoliteninin dünəni, bu günü və sabahı ilə bağlı filmə tamaşa ediblər. Filmdə metropolitenin tarixi ilə yanaşı, istər Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, istərsə də müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin metropolitenin inkişafına, genişlənib böyüməsinə göstərdiyi diqqət, metropolitençi əməyinə verdiyi yüksək qiymətdən bəhs olunub. Həmin ənənələrə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illər müasir dövrün tələblərinə uyğun inşa olunub sakinlərin istifadəsinə verilən yeni stansiyalar, həmçinin istismarda olan mövcud stansiyaların yenidən qurulması haqqında süjetlər filmdə yer alıb.

Yubiley tədbiri "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynovun hesabat çıxışı ilə davam edib. İdarə heyətinin sədri çıxışında Bakı Metropoliteninin yarım əsrlik fəaliyyəti dövründəki parlaq inkişaf tarixindən, bu illər ərzində metropolitenin inkişafı naminə dövlətin qayğısı və diqqətindən ətraflı bəhs edib. O, 2008-ci ildə metropolitenin inkişafına dair dövlət proqramının hazırlanması, həmçinin 2011-ci ildə perspektiv inkişaf planını və müvafiq Dövlət Proqramını təsdiq edən sərəncamların imzalanmasını xüsusi qeyd edərək, bunu yeraltı yollarımızın inkişafına istiqamətverici töhfə adlandırıb.Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlarla bir qrup metropolitençinin "Şöhrət" ordeni, "Əməkdar mühəndis" fəxri adına və "Tərəqqi" medalına layiq görülməsi və veteran işçilərə Azərbaycan Respublikasının fərdi təqaüdünün verilməsi qeyd edilərək sərəncamların mətni oxunub.

Sonra Zaur Hüseynov sözü "Transmaşholdinq" ASC-nin direktorlar şurasının sədr müavini Andrey Vasilyevə verib. O, Bakı Metropoliteni ilə əməkdaşlığın tarixi köklərindən bəhs edərək, bu sahədə əvəzsiz köməkliyi olmuş ümummilli lider Heydər Əliyevin xüsusi diqqət və qayğısından danışıb və metropolitençiləri yubiley münasibətilə təbrik edib.

Tədbirdə "Metro" Beynəlxalq Assosiasiyasının fəxri prezidenti İvan Besedin Bakı metropoliteninin son 5 ildə keçdiyi inkişaf yolunu müqayisəli şəkildə təhlil edib, həm əldə olunan nailiyyətlər, həm də perspektiv baxımından Bakı metropoliteninin qabaqcıl bir təşkilata çevrildiyini qeyd edib. O, bu nəhəng yeraltı şəhəri ərsəyə gətirənlərin əməyinə dərin təşəkkürünü ifadə edərək, onlara, eləcə də metropolitenə dövlət tərəfindən yüksək səviyyədə göstərilən qayğı və diqqəti nümunəvi adlandırıb.

Tbilisi Nəqliyyat Şirkətinin texniki direktoru Levan Mexrişvili çıxışında Azərbaycanla Gürcüstan arasında qonşuluq və qardaşlıq əlaqələrinin möhkəm olduğunu bildirib. O, son illərdə Bakının simasının dəyişib böyüdüyünü, bu xüsusda Bakı metrosunun rolunun artdığını və inkişaf tempi ilə diqqət çəkdiyini vurğulayıb.

Tədbiri yekunlaşdıran "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov metropolitençilərin bundan sonra da dövlətin yüksək etimadını doğruldacağına, bacarıq və qüvvəsini əsirgəməyəcəyinə əminliyini ifadə edib. Bakı Metropoliteninin istismara verilməsinin 50 ili və metropoliten işçilərinin peşə bayramı münasibətilə bir daha kollektivə təbrikini çatdıran idarə heyətinin sədri hər bir metropolitençiyə möhkəm cansağlığı, doğma Vətənimizin qüdrəti və çiçəklənməsi naminə işlərində uğurlar arzulayıb.

Qeyd edək ki, kütləvi sərnişin daşınmasında şəhər əhalisi üçün mühüm əhəmiyyət kəsb edən Bakı Metropoliteni 50 il əvvəl noyabrın 6-da fəaliyyətə başlayıb və elə o vaxtdan təqvimin o günü Bakının tarixinə əlamətdar hadisə kimi daxil olub.

İlk buraxılış mərhələsində 5 stansiyadan "İçərişəhər", "Sahil", "28 May", "Gənclik" və "Nəriman Nərimanov" metro stansiyalarından ibarət 9,2 kilometrlik yeraltı xətdən ibarət olan Bakı Metropoliteninin hazırda 36,6 kilometr uzunluğunda 3 xətti, 25 stansiyası və 1 elektrik deposu var.

Paytaxt sakinlərinə və qonaqlarına göstərilən yüksək xidmət mədəniyyəti sayəsində yeraltı dəmiryolu şəhər nəqliyyatı sistemində layiqli yerini tutaraq sevilən ictimai nəqliyyat növünə çevrilib.

Bakı Metropoliteninin zəhmətkeş kollektivinin əməyi dövlət tərəfindən həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 oktyabr 2006-cı il tarixli Fərmanı ilə noyabrın 8-i Metropoliten işçilərinin peşə bayramı günü kimi təsdiq olunub.



# BSU-da Dövlət Bayrağı Günü qeyd olunub

Dünən Bakı Slavyan Universitetində Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr edilmiş tədbir keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan tədbirdə BSU-nun rektoru, professor Nurlana Əliyeva çıxış edərək, bayrağın milli-mənəvi dəyərlərimizdəki yerindən söz açıb. O, BMT-də, beynəlxalq tədbirlərdə qürurla dalğalanan Azərbaycan bayrağının ölkəmizin siyasi qüdrətini, iqtisadi potensialını, hərbi gücünü əks etdirdiyini bildirib. Rektor multikulturalizm, tolerantlıq kimi yüksək dəyərləri ehtiva edən beynəlxalq forumlarda, nüfuzlu dövlətlərarası tədbirlərdə qaldırılan Azərbaycan bayrağının iftixar yerimiz olduğunu nəzərə çatdırıb. O, Azərbaycan gəncliyini dünyada baş verən neqativ proseslər fonunda öz dövlətini və bu dövləti təmsil edən bayrağı qorumağa çağırıb.

Tarix boyu çətin sınaqlardan keçmiş Azərbaycan xalqının bu gün yaşadığı firavan həyata görə qürur hissi keçirdiyini deyən N.Əliyeva bu inkişafın Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təcrübəsi və Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində əldə olunduğunu vurğulayıb. N.Əliyeva Azərbaycan bayrağının hər bir vətənpərvər insanın and yeri olduğunu diqqətə çatdıraraq, əlamətdar gün münasibətilə hər kəsi təbrik edib.

Sonra BSU tələbələri rus, polyak, bolqar, Ukrayna, belarus, yunan, çex və türk dillərində bayraqla bağlı təbriklər səsləndiriblər. Tədbir bədii hissə ilə davam edib. Tələbələr tərəfindən bayrağımıza həsr olunmuş şeir və mahnılar ifa edilib və milli rəqs nümayiş olunub.

**ZÜMRÜD**

## "Eurovision-2018"də ölkəmizi təmsil edəcək ifaçının adı açıqlanıb

Azərbaycanı "Eurovision-2018" mahnı müsabiqəsində təmsil edəcək ifaçının müəyyənləşdirilməsi məqsədilə noyabrın 8-də münsiflər heyətinin iclası keçirilib. İTV-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda Aysel Məmmədovanın ölkəmizi builki möhtəşəm yarışmada təmsil edəcəyi açıqlanıb.

## Gələcəkdə Bakı ilə Sumqayıt arasında metrobus xətti açıla bilər

Gələcəkdə Bakı ilə Sumqayıt arasında metrobus xətti açıla bilər. AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) baş direktoru Vüsal Kərimli jurnalistlərə açıqlamasında bildirib. O bildirib ki, BNA-nın gələcək planları arasında Bakı və Sumqayıt arasında metrobus xəttinin açılışıdır. Nəqliyyat sıxlığının aradan qaldırılması üçün bu xətt böyük rol oynaya bilər. Bu plan gələcəkdə təsdiq olunarsa həyata keçirilməsi mümkündür.

## Səfir: İran-Azərbaycan əlaqələrinin daha da inkişafı üçün böyük imkanlar yaranıb

İran ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etməsi üçün böyük imkanlar yaranıb. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə İRNA agentliyinə müsahibəsində deyib.

Səfir diqqətə çatdırıb ki, Azərbaycan və İran prezidentləri arasında olan dostluq əlaqələri xalqların mənafeyinə xidmət edir. İqtisadi sahədəki qarşılıqlı faydalı əməkdaşlıq yaxın perspektivdə səmərəli nəticələrini göstərəcək. Onun sözlərinə görə Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişi, iki ölkənin birgə layihəsi olan avtomobil və farmakologiya zavodlarının inşası, qarşılıqlı turist səfərlərinin artması və başqa amillər milli iqtisadiyyatların inkişafına təkan verəcək. Ölkələrimiz arasındakı ticarət dövriyyəsinin artdığını bildirən diplomat bunun sərhəd rayonlarında sosial-iqtisadi vəziyyətə müsbət təsir göstərdiyini qeyd edib.

# “Ölkəmizi tanıyaq”

## Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb

***Artıq dördüncü ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb. Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.***



Ötən müddətdə, ildə iki dəfə olmaqla, 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 7 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 13 min 648 məktəbli iştirak edib.

Bu il noyabrın 11-14 və 16-19 tarixlərini əhatə edəcək növbəti 8-ci tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən, məcburi köçkün rayonlarından, ümumilikdə, 3213 nəfər iştirak edəcək. Bununla da, “Ölkəmizi tanıyaq” tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 17 minə yaxın olacaq. Gəncə-Göygöl-Şəmkir istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin, 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar. Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olmasını, bu hadisənin Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev həmin əlamətdar tarixin qeyd olunması ilə bağlı Sərəncam imzalayıb. Məktəblilər əvvəlcə Azərbaycanın ikinci ən böyük şəhəri - Gəncənin sosial-iqtisadi və mədəni həyatı ilə ətraflı tanış olacaqlar. Müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, yaraşıqlı prospektləri, park və xiyabanları Gəncənin yeni xəritəsində əksini tapıb. Tur-aksiyanın iştirakçıları bu yeniliklərlə tanış olacaq, şəhərin tarixi məkanlarına - Cavadxan Məqbərəsi, Cümə Məscidi, Şah Abbas Məscidi, Çökək Hamam, Xan Bağı, Qədim Qala Divarları, “İmamzadə” Kompleksi, Comərd Qəssab Türbəsi və Nizami Gəncəvi Məqbərəsinə ekskursiya edəcək, Şəmkir rayonunda “Orta əsr Şəmkir şəhəri”, “Abidələr” Parkı, Alman Kilsəsi, Göygöl rayonunda Alman Kirxası, sonuncu alman Viktor Klaynın Ev-Muzeyi ilə tanış olacaq, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına səfər edəcəklər. Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin çox böyük payı var. İndi ölkədə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları Strateji Yol xəritələrində əksini tapıb. Bu baxımdan Lənkəran, Astara, Masallı rayonları ölkə iqtisadiyyatında mühüm yerlərdən birini tutur. Bu bölgə sitrus bağları, çay və çəltik plantasiyaları, səfalı məkanları ilə tanınır, tarixi yerləri, özünəməxsus adət-ənənələri ilə seçilir. Bu il sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələr, bu sahələrin dirçəldilməsi ilə əlaqədar imzalanan Sərəncam ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından mühüm rol oynayır. Bu sahələrin dirçəldilməsi üçün mövcud potensialın qorunub- saxlanılması, həmçinin çəltikçilik, sitrus meyvəçilik, çayçılıq və cins heyvandarlıq təsərrüfatlarının, çəltik və çay emalı müəssisələrinin, sitrus meyvələrinin saxlanılması üçün logistik mərkəzin yaradılması nəzərdə tutulur.

Lənkəran-Astara-Masallı istiqaməti üzrə səfər edəcək məktəblilər bütün bunlarla, eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda “Qoşa Qala” qapıları, Həzi Aslanovun Ev-Muzeyi, Dairəvi Qala, Mayak Binası, Hirkan Milli Parkı, Xanbulan Gölü, çay plantasiyaları, sitrus meyvə bağları, Astarada Şəhər Bulvarı, “Yanar Bulaq” və “Astaraçay” çay fabriki, Masallıda Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq İncəsənət Məktəbi, Dövlət Rəmzləri Muzeyi, “ASAN həyat” kompleksi, Viləşçay Su Anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq. Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu rayonlarımız da digər bölgələrimiz kimi, həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə tanınır. Eyni zamanda, bu bölgədə barama, tütün və fındıqçılıq da geniş inkişaf edib. Prezident İlham Əliyevin Sədrliyi ilə bu il avqustun 4-də Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi bu baxımdan ölkəmizin iqtisadi həyatında mühüm hadisəyə çevrilib.

Xüsusi qeyd etmək lazımdır ki, respublikamızda ənənəvi sahələrdən olan baramaçılığın inkişaf etdirilməsi və ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən zəruri tədbirlər ölkəmizin şimal-qərb bölgəsinin ən iri sənaye müəssisələrindən olan “Şəki-İpək” ASC-nin fəaliyyətini əhəmiyyətli dərəcədə canlandırıb. Şəkidə yeni tut bağları salınır, baramaçılığın, ipəkçiliyin ənənələri yenidən bərpa olunur, “Şəki-İpək” Kombinatında geniş yenidənqurma işləri həyata keçirilir. Bir sözlə, qədim ipəkçilik sənəti ilə məşhur olan Şəkidə indi bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Şəki həm də öz mətbəxi, adət-ənənələri və tarixi məkanlar ilə fərqlənir. Azərbaycan artıq dünya miqyasında idman ölkəsi kimi tanınır. Nüfuzlu beynəlxalq turnirlərdə, idman yarışlarında, dünya və Avropa çempionatlarında, eləcə də olimpiadalarda yüksək yerlər tutan azərbaycanlı idmançılar öz nailiyyətləri ilə bunu təsdiqləyiblər. Ölkəmizin uğurla ev sahibliyi etdiyi nüfuzlu idman tədbirləri sırasında 2015-ci ildə Bakıda və Mingəçevirdə keçirilən I Avropa Oyunlarını, 2017-ci ildə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını, eləcə də “Formula-1” yarışlarını misal göstərmək olar. Bütün bunlara Azərbaycanda idmana göstərilən dövlət qayğısı sayəsində nail olunub. Bu istiqamətdə həyata keçirilən siyasət Azərbaycanda idmanın populyarlaşdırılması, yeniyetmə və gənclər arasında təbliği üzərində qurulub. Eyni zamanda, ölkəmiz üçün yeni olan idman növləri də gənclər arasında yayılmaqdadır. Qəbələdəki “Tufandağ” Xizəkçilik Kompleksi, Qubadakı Qolf Meydançası, “Şahdağ” Turizm Mərkəzindəki Xizək Məktəbi həm turizmin inkişafı, həm də yeni idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə “Tufandağ” Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur-Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcəklər. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan Sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə Məscidi və Kiş kəndindəki Qədim Alban Məbədi, “Marxal” Müalicəvi İstirahət Kompleksi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq. Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər. Sadalanan ənənəvi və gəlirli aqrar sahələrin inkişaf etdirilməsi rayonun qarşısında duran əsas hədəflərdəndir. Şagirdlər müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər. Qədim və Müasir Zaqatala haqqında məlumatlar tur-aksiya iştirakçılarının böyük marağına səbəb olacaq.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də, turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə də seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı Qəsəbəyə, Quba Xalçaçılıq Emalatxanasına, Cümə Məscidinə, Tağlı Körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda “Şahdağ” Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki “Şeyx Cüneyd” Türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki “Şəxsiyyətlər Muzeyi”nə, Çənlibel Parkına, Xalça Muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Tur-aksiyanın proqramı təkcə bölgələrin sosial-iqtisadi, tarixi-mədəni həyatı ilə tanışlıqla bitmir. Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini güllələbaran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprel ayının 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Aprel müharibəsi bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə bu il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsinə dair saziş isə “Yeni əsrin müqaviləsi” adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. Bu il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, Dəmir İpək yolu adlandırılan Bakı-Tbilisi-Qars Dəmir Yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edəcək, yük və sərnişin daşınacaq. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var. Şagirdlər bütün bu layihələr barədə məlumatlandırılacaqlar. Aksiyanın hər iki mərhələsində məktəblilərin asudə vaxtlarında “Nə? Harada? Nə Vaxt?” intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

**Rövşən RƏSULOV**

# Suraxanıda Dövlət Bayrağı Günü münasibəti ilə silsilə tədbirlər davam edir



***Dünən Suraxanı rayonu Heydər Əliyev Parkında xüsusi tərtibatla bəzədilmiş Bayraq Meydanında Suraxanı rayon icra hakimiyyətinin, Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə 9 Noyabr Dövlət Bayrağı Günü münasibəti ilə tədbir keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin Suraxanı rayonu Heydər Əliyev Parkında ucaldılan abidəsini ziyarət ediblər. Sonra Dövlət Bayrağı Günü münasibəti ilə məktəblilər arasında keçirilmiş rəsm müsabiqəsinin qaliblərinin çəkdikləri rəsmlərə baxıblar.

Suraxanı rayonu Heydər Əliyev Parkında Bayraq Meydanında keçirilən tədbir Dövlət Himninin oxunması ilə başlanıb.

Tədbirdə çıxış edən Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, bayraq qürur yerimizdir, dövlət rəmzimizdir, milli kimliyimizdir: "Üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi istiqamətində ilk israrlı, vətənpərvər cəhdlər Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrə təsadüf edir. Muxtar respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş sessiyasında Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmış üçrəngli bayrağın bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edilmiş, üçrəngli bayrağın, bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan Respublikası Ali Soveti qarşısında vəsatət qaldırılmışdır. 1995-ci ildə Ümummilli Liderin rəhbərliyi altında hazırlanmış Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilmişdir."

İ.Abbasov çıxışında xüsusi vurğulayıb ki, Ulu Öndərin milli mənafelərə əsaslanan siyasətini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yüksək vətənpərvərliklə Azərbaycanın milli dövlət atributlarını daim uca tutur və konkret addımları ilə bu ruhu cəmiyyətə aşılayır.

Bildirib ki, bu gün ölkəmizin şəhər və rayonlarda bayraq meydanlarında Dövlət Bayrağının təntənəli dalğalandığını görmək mümkündür. Belə yerlərdən biri də Suraxanı rayonunda Heydər Əliyev Parkında yerləşən Bayraq Meydanıdır. Dövlət Bayrağımız 4 may 2009-cu il tarixdən bu meydanda dalğalanaraq, hər birimizi qürurlandırır. Tədbirdə Azərbaycan Velosiped İdmanı Federasiyasının Baş katibi Fərhad Əliyev, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov çıxış edərək, Dövlət Bayrağı Gününün əhəmiyyətindən danışıb, belə tədbirlərin keçirilməsini yüksək qiymətləndirib.

Sonra Heydər Əliyev Parkında yerləşən Bayraq Meydanından velosipedçilərin yürüşünə start verilib. 100-dən çox velosipedçi xüsusi geyimdə Dövlət Bayrağı ilə rayonun Balandin, Səttar Bəhlulzadə, Atamoğlan Rzayev küçələrindən keçərək, "Ateşgah Məbədi" Tarix-Memarlıq Qoruğuna gəliblər. Oradan isə Atamoğlan Rzayev, Malik Mustafayev küçələrindən keçərək, finiş nöqtəsinə - Bayraq Meydanına gəliblər. Bütün marşrut boyu və finiş nöqtəsində velosipedçiləri gənclər və sakinlər böyük coşqu ilə bayraqlarla salamlayıblar.

***ZÜMRÜD***

# YAP Xaçmaz rayon təşkilatı partiyanın 25 illik yubileyi münasibəti ilə silsilə tədbirlərini davam etdirir

Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Xudat şəhər ərazi ilk partiya təşkilatı partiyanın yaranmasının 25 illik yubileyinə həsr olunmuş ziyafət mərasimi keçirib.




Tədbirdən öncə partiyanın rayon təşkilatının rəhbərliyi və qonaqlar Ulu Öndər Heydər Əliyevin abidəsinin qarşısına gül dəstələri düzüblər.

Mərasimi giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatı idarə heyətinin üzvü Akif Mərdanov açaraq, partiyanın yaranma zərurətindən, həmin dövrlərin çətin sınaqlarından və əhəmiyyətli hadisələri əks etdirən tarixindən danışıb. Onun sözlərinə görə, bu gün müstəqil və inkişaf edən Azərbaycanın mövcud uğurlara imza atmasının təməlində, məhz Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs dayanır. "Bu gün



həmin siyasət Yeni Azərbaycan Partiyasının Sədri, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir"-deyə vurğulayan A.Mərdanov, həmçinin qeyd edib ki, bütün Azərbaycan xalqı kimi, xaçmazlılar da bu siyasətin yürüdülməsinə mütəşəkkil olaraq dəstək göstərirlər.

Tədbirdə Milli Məclisin deputatı İlham Əliyev çıxış edərək bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası xalqın partiyasına çevrilmiş və Qafqazda analoqu olmayan ən qüdrətli siyasi təşkilatlardandır ki, ölkəmizin əldə etdiyi hər bir uğurda Onun müstəsna yeri və rolu vardır. "YAP-ın qarşısında yalnız bir amal və məqsəd dayanır: yeni-yeni qələbə və zəfərlərə imza atmaqla Azərbaycanı daha güclü etmək, xalqımızın rifah halını daha da yaxşılaşdırmaq"-deyə qeyd edən millət vəkili onu da vurğulayıb ki, bu inkişaf və tərəqqi bundan sonrakı illərdə də davam etdiriləcək.

YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev də, öz növbəsində, partiyanın yaranma zərurətindən, 25 illik fəaliyyətindən, müstəqil Azərbaycanın inkişafındakı xidmətlərindən, Ulu Öndər Heydər Əliyevin YAP-ın yaranması və inkişafındakı xidmətlərindən bəhs edərək, hakim siyasi təşkilatın yubileyi münasibəti ilə hər kəsi təbrik edib. "Yeni Azərbaycan Partiyasının Sədri olaraq, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev öz misilsiz və müdrik siyasəti ilə Azərbaycan xalqının gələcəyinə hesablanmış mütərəqqi addımlar atır"-deyə qeyd edən N.Ağayevə görə, Onun müstəqil Azərbaycanın inkişafı naminə həyata keçirdiyi bir sıra uğurlu siyasət vektorunun əhəmiyyəti həyata keçirilən nəhəng regional və beynəlxalq layihələrlə də sübuta yetirilməkdədir.

Tədbirdə partiya fəallarından Nəzakət Kərimova, Ayaz Mirzəyev, Şair Telman Təravət və digərləri də çıxış edərək, YAP-ın 25 ildə keçdiyi möhtəşəm tarixi yolu barədə fikirlərini bildiriblər.

Tədbir Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzinin "Xəzər" İnstrumental Ansamblının iştirakı və bir-birindən maraqlı konsert proqramı ilə davam etdirilib.

***Rövşən RƏSULOV***

# Siyəzəndə YAP-ın 25 illik yubileyi qeyd olunub



**YAP** Siyəzən rayon təşkilatında Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər davam edir. Dünən YAP Siyəzən rayon təşkilatı SOCAR "Qaz İxrac" İdarəsi Siyəzən Magistral Qaz Kəmərləri Sahəsi ərazi ilk təşkilatında Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib.

Tədbiri giriş sözü ilə rayon təşkilatının sədri Etibar Heydərov açaraq bildirib ki, xalqın istəyi ilə yaranan YAP müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisidir. Partiya dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək, atdığı addımlarla cəmiyyətdə nüfuzunu daha da artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. YAP Siyəzən rayon SOCAR "Qaz İxrac" İdarəsi Siyəzən Magistral Qaz Kəmərləri Sahəsi ərazi ilk təşkilatının sədri Mircəlal Kazımzadə vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasət Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır və hədəflər müəyyənləşdirir. Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi müstəqil Azərbaycanın tarixində əhəmiyyətli hadisədir.

SOCAR "Qaz İxrac" İdarəsi Siyəzən Magistral Qaz Kəmərləri Sahəsi ərazi ilk təşkilatının fəal üzvü Əliyeva Səbirə öz çıxışında bildirib ki, xalqın istəyi ilə yaradılan YAP yarandığı gündən milyonların sevgisini qazanıb. Azərbaycanın bugünkü inkişafı, tərəqqisi hər bir Azərbaycan vətəndaşında, partiyanın hər bir üzvündə qürur hissi doğurur. Möhkəm təməl Azərbaycanın qarşısında geniş imkanlar açır. Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətə və bu xəttin hazırda Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə söykənir. Tədbirin sonunda bir qrup partiya üzvünə fəxri fərmanlar təqdim olunub.

***Z. BAYRAMOVA***

# Azərbaycan xalqının milli birliyi

## Bu gün ölkəmizdə 9 Noyabr Dövlət Bayrağı Günü qeyd olunur

***Müasir dünyada müstəqil Azərbaycan dövlətinin rəmzləri onun dövlətçilik əlaməti olmaqla yanaşı, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir". Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağı siyasi-ideoloji və mənəvi baxımdan əhəmiyyətlidir göy, qırmızı, yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət üçrəngli bayraq Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.***




Hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Demək, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq kimi üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. O, şəxsi həyatındakı irəliləyişləri belə öz dövlətinin milli inkişafından ayrılmaz şəkildə dərk edir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. O ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan indiki Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına səдd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qaldırılıb. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının bayrağının Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdən biri kimi dəyərləndirirdi: "Vətəndaşlarımıza, xüsusən, gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə, bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın Bayrağına, Gerbinə və Himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir".

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı milli suverenliyin simvolu və rəmzi kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Belə ki, Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilib. Bu qanunla Dövlət Bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər müəyyən edilmişdir. Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında" 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən, Bakının Bayıl qəsəbəsində dünyanın ən hündür bayraq dirəyi inşa edilib və Dövlət Bayrağı Meydanı salınıb. Meydan üçün seçilmiş yer Dövlət Bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradır. Hündürlüyü 162 metr, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metr olan Dövlət Bayraq Meydanı Ginnes Dünya Rekordları Təşkilatı tərəfindən 2010-cu il mayın 29-da dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı şəhərində açılışı olan və dünyaya səs salan Dövlət Bayrağı Meydanı bayrağımıza və dövlətçilik tariximizə olan ehtiramın təntənəsidir. Meydanda qurulmuş Azərbaycan Respublikasının Gerbi, Dövlət Himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Bütün bunlarla yanaşı, Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Paytaxt Bakı şəhərilə yanaşı, ölkəmizin bir çox bölgələrində də yaradılan bayraq meydanları da dövlət atributlarımıza ölkə başçısının olan sevgi və hörmətinin göstəricisidir. "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bu gün Azərbaycanın hər bir yerində dalğalanan Dövlət Bayrağının Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra işğal altında olan torpaqlarda qaldırılacağına əminliyini bildirib: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Vətən torpağının bütövlüyü uğrunda şəhidliyə hazır olan Azərbaycan əsgəri o bayrağa sarılaraq şərəfli mübarizəyə qoşulur, vətənin azadlığı uğrunda övladını qurban vermiş valideynlər şəhid cənazəsinə bükülmüş müqəddəs bayraqla təskinlik tapırlar. Budur bayrağın müqəddəsliyi və bayrağımıza olan sevgi.

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur.

Müstəqil dövlətimizin bayrağı hər zaman uca tutulur və müqəddəslik rəmzinə çerilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Hindistan səfiri: Bakı Şopinq Festivalı istehsal sahəsinin şaxələndirilməsinə zəmin yaradır

Azərbaycanda şopinq festivalının keçirilməsi qeyri-neft sektorunun inkişafından xəbər verir. Bu layihə, xüsusilə ölkəyə turist axını baxımından əlverişli layihədir. AZƏRTAC xəbər verir ki, bu sözləri Hindistanın Azərbaycandakı səfiri Sancay Ranan festivalın saytına açıqlamasında deyib.

Səfirin sözlərinə görə, belə festivalı təşkil etmək ilk növbədə böyük iqtisadi potensial tələb edir. "Şopinq Festivalın əhəmiyyəti həm də ondadır ki, bu, ölkənin istehsal sahəsinin şaxələndirilməsinə zəmin yaradır. Azərbaycan hökuməti artıq ikinci dəfədir şopinq festival keçirir. Nəticədə ölkəyə turist axını müşahidə olunur. Hindistandan gələn turistlər də Bakı Şopinq Festivalına maraqla yanaşırlar. Məlum olduğu kimi, Bakıda böyük Hindistan sərgisi təşkil olundu. Bu sərginin iştirakçıları da festivalın əlverişli imkanlarından yararlandılar", - deyə diplomat bildirib.

## Bakı Metropolitenin gələcək inkişaf planına görə stansiyaların sayı 76-ya çatdırılacaq

Bakı Metropolitenin gələcək inkişaf planına görə stansiyaların sayı 76-ya çatdırılacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov Bakı metrosunun 50 illik yubileyi çərçivəsində keçirilən tədbirdə deyib. O bildirib ki, Bakı metrosunun gələcək inkişaf planına görə metronun mövcud 3 xəttinə (yaşıl, qırmızı, sarı) daha 2 xətt (sarı, mavi) əlavə olunaraq 5 xəttə çatdırılacaq. Həmçinin 76 stansiya, 120 kilometrlik metro xətti olacaq.

# 2 milyardıncı ton Azərbaycan nefti

## *Bununla bağlı "İki sahil" qəzeti xüsusi buraxılış hazırlayıb*

"İki sahil" qəzetinin 2 milyardıncı ton Azərbaycan neftinin hasil olunması münasibətilə hazırladığı 82 səhifəlik xüsusi buraxılış neft sənayemizin tarixində baş verən mühüm hadisələri özündə əks etdirir. Maraqlı yazılar, ayrı-ayrı dövrlər üçün şəkillər və yüksək poliqrafik tərtibat diqqət çəkir.




Qəzetin üz qabığında yer alan dövlətimizin başçısı İlham Əliyevin "Neftin vətəni Azərbaycandır, neft sənayesi, bax, buradan başlanmışdır. Bu gün-artıq 200 ilə yaxın vaxt keçəndən sonra da Azərbaycan dünyada neft ölkəsi, qaz ölkəsi kimi öz sözünü deyir. Bu gün bizim neftimiz xalqımıza məxsusdur" fikirləri tarixən neft ölkəsi kimi tanınan Azərbaycanın davamlı uğurlarında bu amilin rolunu xüsusi önə çəkir. Xüsusi buraxılışın növbəti səhifəsində Azərbaycanda bir milyardıncı ton neftin 1971-ci il martın 28-də çıxarılması faktı, ölkə Prezidenti İlham Əliyevin iki milyardıncı ton neftin hasil edilməsi münasibətilə 7 noyabr 2017-ci il tarixli "Azərbaycan Respublikasında neft sənayesi işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan neft sənayesi işçilərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında", "Azərbaycan Respublikasında neft sənayesi işçilərinə fəxri adların verilməsi haqqında" sərəncamları yer alıb.

"Bu şanlı nailiyyət, ilk növbədə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Möhtərəm Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən qalibiyyətli enerji strategiyamızın zəfər təntənəsidir... Azərbaycan neft-qaz sənayesinin böyük bir dövrü Ulu Öndərin adı ilə sıx bağlıdır. Bugünkü uğurlarımız hələ Sovet dövründə Onun gərgin əməyi sayəsində axtarış-kəşfiyyat, qazma, hasilat, emal və başqa sahələrdə yaradılmış zəngin infrastruktur potensialının gücünə əsaslanır." Bu fikirlər SOCAR-ın prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevin 2 milyardıncı ton Azərbaycan neftinin hasil olunması münasibətilə təbrikində əksini tapıb. O da qeyd edilir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun təkmilləşdirilmiş enerji strategiyası ötən illərdə ölkəmizə böyük nailiyyətlər qazandırmış və bu gün də qeft-qaz sənayemizi yeni-yeni qələbələrə aparır. Neft-qaz hasilatında əldə olunan nailiyyətlər SOCAR-ın inkişafı üçün böyük imkanlar yaratmışdır. Azərbaycan bu gün Avropanın ən böyük enerji və infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi"nin təşəbbüskarı və avanqard qüvvəsi kimi bütün dünyada böyük etimad qazanmışdır.

R.Abdullayev təbrikində qədim neft diyarı Azərbaycanın şöhrətinin dünyaya yayılması naminə misilsiz əmək sərf etmiş bütün neftçilərə, həyata keçirilən regional və qlobal əhəmiyyətli layihələrdə əməkdaşlıq edən hər kəsə təşəkkürünü bildirir.

"Azərbaycan neftinin tarixi çox qədim dövrlərə gedib çıxır", "ABŞ və Rusiyanın neft mübarizəsində Bakının rolu", "Əgər neft şahzadədirsə, Bakı onun tacıdır", "Bakı nefti faşizm üzərində qələbənin qazanılmasında həlledici amil oldu", "Azərbaycan neft sənayesinin tərəqqisi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır", "Yeni neft strategiyasının uğurlu icrası: 2 milyardıncı ton Azərbaycan neftinin hasilatına aparan yol", "Yeni əsrin müqaviləsi" müstəqil Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafının əsasıdır" kimi məqalələrdə Azərbaycan neftinin şöhrəti, uğurlara geniş yol açması, ölkəmizin iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsində rolu, neft kapitalının insan kapitalına çevrilməsinə apardığı yol və s. kimi məqamlar geniş təhlil olunur. Neft strategiyasının həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın inkişaf yoluna isə Möhtərəm Prezidentimiz İlham Əliyevin bu fikirləri ilə diqqət yönəldilir: "SOCAR beynəlxalq enerji şirkətinə çevrilib. İlk növbədə, ona görə ki, Azərbaycanda belə genişmiqyaslı böyük layihələr icra edilmişdir..." Həmçinin, "Neft tariximizdən" adı altında məqalədə ayrı-ayrı illərin neft sənayesinin inkişafında statistik faktların önəmi oxuculara çatdırılır.

Dövlətimizin başçısı İlham Əliyevin xüsusi yer aldığı "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Azərbaycanın yeni neft strategiyası bu gün ölkəmizin uğurlu inkişafını təmin edir" fikirləri 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisidir. 1994-cü il sentyabrın 20-də Ulu Öndərin rəhbərliyi ilə "Əsrin Müqaviləsi"nin imzalanması Azərbaycanın iqtisadi imkanlarının genişlənməsinə, dünya iqtisadi sisteminə inteqrasiyasına yol açdı. Ondan sonra imzalanan müqavilələr Azərbaycana, dövlətimizin həyata keçirdiyi siyasətə inamı bir daha ortaya qoydu. "Əsrin Müqaviləsi""nin 23 illiyi ərəfəsində "Yeni əsrin müqaviləsi"nin imzalanması bir daha ölkəmizin beynəlxalq aləmdə yeri və roluna, enerji təhlükəsizliyinin təminatına verdiyi töhfələrə işıq saldı. Artıq TAP, TANAP, "Cənub Qaz Dəhlizi"nin perspektivləri və çoxtərəfli əməkdaşlığa açılan yol geniş təhlil olunur. Dövlətimizin başçısı İlham Əliyev BTC və BTƏ neft-qaz kəmərlərini dünyaya açılan pəncərə kimi dəyərləndirir. Bu reallıq da qeyd edilir ki, BTC və BTƏ neft qaz layihələri icra edilməsəydi, bu gün "Cənub Qaz Dəhlizi"ndən danışmaq qeyri-mümkün idi. "Yeni əsrin müqaviləsi" 23 ilin uğurlarına əsaslanaraq, qarşıdakı illərin hədəflərinə stimuldur. Son 14 ildə ölkə Prezidenti İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirək" tezisi, məhz neft amilinin iqtisadiyyatımızın inkişfında rolundan, neft gəlirlərinin idarə olunmasında şəffaflığın yüksək səviyyədə təmin edilməsindən danışılır.

Xüsusi buraxılışa Ulu Öndər Heydər Əliyevin "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir" fikri ilə sonluq verilir. Bu sonluq dünənimizə, bu günümüzə baxış perspektivlərimizin müəyyənləşdirilməsidir.

# Bayrağımız hər bir azərbaycanlının qüruru, mənliyi və şərəfidir

## *9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günüdür*



Azərbaycanın üçrəngli bayrağı dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olunub. Yenidən isə ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisi qərar qəbul etdikdən sonra muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul olunub. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin qərarı ilə hazırkı üçrəngli və ay-ulduzlu bayraq dövlətimizin bayrağı elan edilib. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı Sərəncamla 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur.

### Sədaqət Vəliyeva: "Biz azərbaycanlılar xoşbəxtik ki, bizim də bayrağımız və güclü dövlətçiliyimiz var"

- Hər bir dövlətin müstəqilliyi və suverenliyini onun dövlət rəmzləri müəyyən edir. Həmin rəmzlərdən biri də bayraqdır. Müasir dövrdə bayraq hər bir dövlətin beynəlxalq münasibətlər sistemində iştirak etməsi üçün vizit vərəqəsi sayılırsa, bu, xalq üçün onun mənliyini, kimliyini ifadə edən xüsusi atributdur. Biz azərbaycanlılar xoşbəxtik ki, bizim də bayrağımız və güclü dövlətçiliyimiz var. 1918-ci ildə Azərbaycanın üçrəngli bayrağı qəbul edilsə də, xarici siyasi-hərbi müdaxilələr həmin bayrağın cəmi 23 ay dalğalanmasına səbəb oldu. 1991-ci ilə qədərki dövrdə isə Azərbaycan üçün 6 cür bayraq təyin edilmişdi. Amma 1990-cı il noyabr ayının 17-də isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Ümummilli Lider Heydər Əliyevin Sədrliyi ilə keçirilən sessiyasında Xalq Cümhuriyyətinin bayrağı ilk dəfə rəsmi olaraq salona gətirildi və Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı elan olundu. 1991-ci ildə isə xalqın tələbi ilə Ali Sovet "Dövlət bayrağı haqqında" Qanun qəbul etdi və üçrəngli bayrağımıza Azərbaycan Respublikasının Dövlət Bayrağı statusunu verdi. 1991-ci il oktyabrın 18-də müstəqilliyini elan edən Azərbaycan Respublikası özünü Azərbaycan Demokratik Cümhuriyyətinin varisi elan edərək, onun dövlət rəzmlərini, eləcə də, bayrağını qəbul etdi. Hər bir azərbaycanlı milli həmrəyliyin ifadəsi olaraq, bu bayraq ətrafında sıx birləşdi.

Bu gün hər kəs bayrağı milli qeyrəti və mənliyi kimi qəbul edir. Bayrağımız Azərbaycanın qüdrətini nümayiş etdirən yüksəklikdə dalğalanır. Azərbaycan bayrağının dünyanın ən hündür direyinin üzərində dalğalandırılması isə Azərbaycan xalqının bayrağının onun üçün nə qədər qiymətli olduğunu bir daha təsdiq etdi, bir daha bayrağın milli-etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlının qüruru, mənliyi, şərəfi olduğu sübut olundu. Bakıda üçrəngli Azərbaycan bayrağının ən hündür yerdə dalğalandırılması ilə ölkəmizin sahibi azərbaycanlıların olduğu bir daha dünyaya nümayiş etdirildi, dünya bir daha gördü ki, bundan sonra heç bir qüvvə həmin bayrağa toxuna, ləkə yaxa və endirə bilməyəcək.

### Millət vəkili Aydın Mirzəzadə: "Dövlət Bayrağı Günü vətəndaşlıq və tarixi dövlətçilik günüdür "

- Dövlət Bayrağı Günü vətəndaşlıq və tarixi dövlətçilik günüdür. Bu gündə hər bir kəs yaşadığı ölkənin tarixinə, kimliyinə bu dövlətin nüfuzuna və cəmiyyət üçün gördüyü işlərə bağlılığını hiss edir. Dövlət Bayrağı Gününün məhz 9 noyabrda qeyd olunması heç də təsadüfü deyildir. 1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə üçrəngli bayraq Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul edildi. Azərbaycanda Dövlət Bayrağı Günü xüsusi bir önəm daşıyır. İki yüz illik fasilədən sonra öz dövlətçiliyini bərpa edən Azərbaycan xalqı bu gün müstəqilliyi yaşatmaq və dünya birliyində özünə layiqli yer tutmaq üçün hər bir addımı ilə uğurlar qazanıb. Bayrağımızın beynəlxalq tədbirlərdə uğur gətirən layihələrdə dalğalandırılması Azərbaycanın artıq sıradan bir ölkə olmadığını və dünya dövlətləri üçün arzu olunan bir müttəfiqə çevrildiyini bir daha sübut edir. Bu gün Azərbaycan bayrağı işğal olunmuş torpaqlarda, işğaldan azad edildikdən sonra dalğalanması üçün dövlətimiz, Prezidentimiz, silahlı qüvvələrimiz ciddi mübarizə aparır və bunun olacağı gün heç də uzaqda deyil. Dövlət Bayrağı Gününü qısa bir zamanda hər bir Azərbaycan vətəndaşının sevimli bayramına çevrilməsi vətəndaşlıq hissinin böyüklüyündən irəli gəlir. Dövlət Bayraq Günü ilə bağlı Azərbaycanın kənd və qəsəbələrində, şəhərlərində kütləvi tədbirlərin keçirilməsi və cəmiyyətin müxtəlif təbəqələrinin orda iştirakı və münasibət bildirməsi bayrağımızın hər bir kəsin həyatının bir tərkib hissəsi olduğunu bir daha sübut edir.

### İlqar Orucov: "Arzu edirəm ki, bayrağımız tarixi torpaqlarımız olan Qarabağda, Xankəndidə və Şuşada dalğalansın!"

- 9 noyabr tarixinin Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunmasının böyük siyasi-ictimai və mənəvi yükü var. İlk növbədə bizim milli bayrağımız bizim müstəqil dövlətimizin mühüm atributlarından, onun müstəqilliyini nümayiş etdirən vacib rəmzlərdən biridir. Planetimizdə yaşayan çox az sayda xalqa müstəqil dövlət qurmaq nəsib olmuşdur ki, onlardan biri də Azərbaycan xalqıdır. Müstəqillik uğrunda bizim nə qədər qurbanlarımız olub, nə qədər mücadilələrimiz olub, nə qədər işıqlı insan, məhz bu bayrağın dalğalanması üçün əziz canından belə keçməyi şərəf və qürur bilmişdir. Ona görə də bayrağımız bizim üçün müqəddəsdir, əzizdir.

Bayrağa münasibətimizin siyasi əhəmiyyəti, ilk öncə, bizim müstəqilliyimizin göstəricisi olmasındadır, milli dövlətə sahib olmağımızdadır. Hər zaman qürurlandığımız milli bayrağımız dünyanın ən böyük siyasi tribunalarında, beynəlxalq qurumlarda, dövlət başçımızın səfərlərində və idman yarışlarında dalğalanır. Azərbaycanın adı çəkiləndə, ilk olaraq, göz önünə gələn də üçrəngli bayrağımız olur. Hər bir Azərbaycan vətəndaşı dünyanın harasında yaşamasından asılı olmayaraq, bu dəyəri göz bəbəyi kimi qoruyur, ona ehtiram göstərir və onunla fəxr edir. Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan hər bir igidimizin nəşi üçrəngli bayrağımıza bükülür. Çünki harada vətən torpağı varsa, orada bizim milli bayrağımız var və torpaq üçün şəhid olmaq, bayraq uğrunda canından keçməklə eyni mənanı kəsb edir. Arzu edirəm ki, bayrağımız tarixi torpaqlarımız olan Qarabağda, Xankəndidə və Şuşada dalğalansın! İnanıram ki, o gün uzaqda deyil, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə igid əsgərlərimiz o qürurlu anları tezliklə xalqımıza yaşadacaq!

Fürsətdən istifadə edərək xalqımızı Dövlət Bayrağı Günü münasibətilə təbrik edirəm! Qoy bayrağımız daim yüksəklərdə dalğalansın!

**GÜLYANƏ**

# Ulu Öndər Heydər Əliyevin azərbaycanlıların milli-mədəni birliyi uğrunda mübarizəsi

***Hələ Sovet dövründə Ulu Öndər Heydər Əliyev azərbaycanlıların milli-mədəni birliyi uğrunda mübarizə aparırdı. AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı yazır: "Məlumdur ki, SSRİ-də və onun tərkib hissəsi olan Azərbaycanda hakim olan marksizm-leninizm ideologiyası millət və millətçilik məfhumlarını mənəvi ünsürlərə dayandığı üçün rədd edirdi. Hələ K.Marks və F.Engelsə görə kapitalizm sistemi ləğv edildikdən sonra proletariatın hakimiyyəti dövründə millətlər yox olacaqdılar. Kommunist cəmiyyətləri sinifsiz olduğu kimi, həm də millətsiz olmalı idilər. Əslində, kommunizm rus millətçiliyinin dəyişilmiş formasından başqa bir şey olmayıb, ölkənin digər xalqlarını, o cümlədən, Azərbaycan xalqını da totalitar Sovet millətçiliyinə çevirmək məqsədi güdürdü.***

Bunu dərindən bilən Heydər Əliyev əvvəlcə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, sonra isə tam hüquqlu üzv olmasına baxmayaraq, azərbaycanlıları Sovet İttifaqında mövcud olan totalitar millətçilikdən tədricən xilas etdiyindən, Azərbaycan coğrafiyasında, ən böyük azərbaycansevər və millətsevər idi. Bəhs edilən bu coğrafiya azərbaycanlıların vətəni olan Azərbaycan torpağı idi. Tarixi təcrübə göstərir ki, vətənə bağlanmayan və konkret praktik işlərlə möhkəmləndirilməyən millətsevərlik xəyaldan başqa bir şey olmayıb, boş sözlər kimi havadan asılı qalır. Ümumi tarix, dil, mədəniyyət, xoşbəxtlik və bədbəxtliyi birləşdirən topluluq vətəndə kütlə halından çıxıb millət olur. Deməli, bu baxımdan, millət fikrinin təməli də vətənin mövcudluğu ilə bağlıdır. Heç əbəs deyil ki, azərbaycanlıların böyük əksəriyyəti vətən deyəndə SSRİ-ni deyil, Azərbaycanı, paytaxt deyəndə Moskvanı deyil, Bakını, rəhbər deyəndə isə L.İ.Brejnevi deyil, Heydər Əliyevi başa düşürdülər. "Əziz Vətən", "Can Azərbaycan", "azərbaycançılıq" və s. kimi ifadələr Sovet dövründə, məhz həmin illərdə ictimai şüura daha çox möhkəm daxil olmuşdu. Bu coğrafiyada formalaşan güclü millətsevərlik sonradan Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdə, siyasi dövlət milliyyətçiliyinə çevrildi. Əslində 70-80-ci illərdə millətsevərlik azərbaycançılığa çevrilərək sağlam milliyyətçiliyin, milli birliyin bütün ünsürlərini özündə ehtiva edirdi. Azərbaycan coğrafiyasındakı millətsevərlikdə Azərbaycan ərazisi torpaq, zəmin, islam dini ruh, azərbaycançılıq isə gövdə rolunu oynayaraq bütün vətəndaşların istək, arzu və düşüncələrini ifadə edirdi. Bunların vəhdəti olmadan xalqın istəklərinə qovuşması xəyal olaraq qalırdı." Azərbaycan filosofu R.Mehdiyev yazır: "Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitədir... "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi qanun və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir".

M.Qasımlı yazır: "Məhz bütün Sovet tarixi ərzində, ilk dəfə olaraq, Heydər Əliyevin hakimiyyəti illərində alim, şair və yazıçılar arasında böyük ruh yüksəkliyi hökm sürürdü. Onlar xalqın birliyini, vəhdətini, problemlərini, düşündürən məsələləri çəkinmədən tərənnüm edirdilər. Azərbaycan üzrə görkəmli ABŞ tədqiqatçısı Brenda Şaffer yazır ki, 60-70-ci illərdə yazıçılar və ziyalılar öz əsərləri ilə Azərbaycan mədəniyyətini və milli inkişafını hazırlamağa kömək etdilər. Onların çoxlu əsərlərində, aşıq şerində milli kimlik və vətən anlayışları tərənnüm edilirdi. Rejim isə yalnız dekorasiya idi. Doğrudan da, bir çox şair və yazıçılar üçün rejim yalnız zahiri bir görüntü idi. Məsələn, milli ruhlu şeirləri ilə seçilən görkəmli şair Bəxtiyar Vahabzadə Azərbaycan yazıçılarının qurultaylarında L.İ.Brejnev başda olmaqla Sov.İKP MK Siyasi Bürosunu qurultayın fəxri rəyasət heyətinə seçməyi təklif edir, elə həmin qurultayda da milli ruhlu çıxış edirdi. Bütün bunların hamısına Heydər Əliyev şərait yaradır, söylənilənlər Onun gözlərinin qarşısında baş verirdi. O, belə üsullardan istifadə edərək, milli ruhlu ziyalıları rejimin fəsadlarından qoruyur, kommunist rəhbər olmasına baxmayaraq, özünün bütün varlığı ilə milli köklərə bağlılığını ortaya qoyurdu.

Heydər Əliyev milliətsevərliyi Azərbaycanı parçalamağa, küskünlüyə, incikliyə yönələn məhdud etnik deyil, respublikanı bütövləşdirmək məqsədi daşıyan siyasi, coğrafiya milliyyətçiliyi mahiyyətini daşıyaraq, bu ərazidə yaşayan bütün vətəndaşların soykök mənsubiyyətindən asılı olmayaraq, birləşərək Azərbaycan naminə çalışmalarına xidmət etmək məqsədi güdürdü. Bu isə Azərbaycanı bir çox xoşagəlməz hadisələrdən, xüsusən, etnik ziddiyyətlərdən və qarşıdurmadan xilas edirdi.

Heydər Əliyev hakimiyyətə gələrkən Azərbaycanla əlaqələri olmayan və ya zəif olan xaricdə yaşayan azsaylı azərbaycanlıların inkişafını istəsə və bundan ötrü ciddi addımlar atsa da, mücərrədlikdən qaçaraq, ilk növbədə, daha çox gözünün qarşısında olan, rəhbərlik etdiyi böyük çoxluq təşkil edən xalqının praqmatik siyasəti ilə inkişaf etdirir, milli-mənəvi dəyərlərini qoruyaraq zənginləşdirir, qürbətdə yaşayan həmvətənlər üçün cəlbedici edirdi".

Məlumdur ki, müstəqil dövlətçilik şəraitində millətsevərlik, milli problemləri həll etmək nə qədər asandırsa, ağır Sovet sistemi şəraitində onları yoluna qoymaq bundan qat-qat ağır idi. Aydındır ki, 1969-1987-ci illərdə Azərbaycanda müstəqil milli dövlət mövcud deyildi, Azərbaycan SSRİ-nin İttifaq respublikalarından biri idi. Çünki milli dövlət başqa bir millət və dövlətin siyasi, hərbi, iqtisadi və hətta mədəni təsiri altında olmayan dövlətdir. "Millət" ərəbcə ifadə olub çoxlu kütlə və əhali deməkdir. "Millət" ifadəsi latınca "nation" tayfa və xalq anlamını verir. M.Qasımlının fikrincə, milləti meydana gətirən amillər - irq, ərazi, vətən birliyi kimi təbii və ya obyektiv amillərlə yanaşı, dil, ədəbiyyat, sənət, tərbiyə, milli tarix və ideal birliyi kimi subyektiv və nəhayət, müstəqil bir dövlət halında təşkilatlanma və ümumi mənfəətlər kimi hüquqi-siyasi və iqtisadi amillərdir. Millət, bu üç qrup amilin nəticəsində meydana gələn qarışıq sosial və hüquqi bir gerçəklikdir. Ancaq millət yalnız irq və ərazi birliyinin, yalnız dil, tarix, ideal birliyinin, eyni zamanda, yalnız siyasi, hüquqi və iqtisadi birliyin məhsulu deyil. Millət hər şeydən əvvəl, qan və soykök birliyidir. Azərbaycan xalqında 1969-1987-ci illərdə milli inancı, qənaəti gücləndirən və inkişaf etdirən, məhz Ulu Öndər Heydər Əliyev oldu. O, azərbaycanlıların Sovet dövründə itirilmiş özünəinamını bərpa edərək, onlarda milli ruh yüksəkliyini və qüvvəsinə arxalanmaq hissini gücləndirdi. Hətta ABŞ tarixçiləri də qeyd edirlər ki, Heydər Əliyev 70-80-ci illərdə Azərbaycan xalqında nikbinlik və özünə inam yaratdı.

Türkçülüyün əsaslarını yaradan Z.Göyalpa görə, "millət nə irqə, nə qövmə, nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir topludur. Millət dil, din, əxlaq və bütün gözəl sənətlər baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir" ki, tarixən ortaq dil millətin varlığında mühüm rol oynayıb. İlk baxışda millət eyni dildə danışan insanlardan böyükdür və eyni dildə danışan insanlardan meydana gəlmiş bir qrupdur. Eyni dildə danışan insanların eyni irqdən olduğunu da söyləmək olar. Qeyd etmək lazımdır ki, vaxtilə alman irqçiliyinin əsaslarından biri də, məhz bu olmuşdu. Ortaq dilin millətin birliyinin ən güclü əsaslarından biri olduğu şəksizdir. Ancaq soruşulur: millət dili yetişdirir, yoxsa dil milləti? Dil sosial bir reallıq olub, daha çox tarixlə bağlıdır. Ona görə dil də millətin yaranması üçün əsas deyil. Məsələn, ingiliscə danışan adamların heç də hamısı ingilis deyil. 70-ci illərdə Azərbaycan dili Azərbaycanda yaşayan insanları birləşdirən başlıca vasitələrdən biri idi.

Milləti var edən ən başlıca amil ortaq vətən və torpaq hissləridir. Ortaq torpaq milləti təşkil edən ən təbii və maddi amildir. Millət ortaq vətən torpağı üzərində doğulub yaşayan insanlardan meydana gəlmiş bir qrupdur. Lakin eyni torpaqlarda yaşayan bütün insanlar bəzən vahid millətdə qaynayıb qarışmaya da bilərlər. Eyni dinə bağlılığın adamların bir-biri ilə birləşməsində böyük rolu olduğu şəksizdir. Böyük səmavi dinlər olan iudaizm, xristianlıq və islam mahiyyətləri etibarı ilə onlara itaət edənləri bir mərkəzdə birləşdirirlər. Orta əsrlərdən etibarən, azərbaycançılığın qorunmasında, Azərbaycan torpaqları üzərində yaşayan aborigen xalq olan azərbaycanlıların varlığının mühafizəsi və inkişafında, Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində, sonralar isə millətin formalaşmasında, bütövləşməsində islam dini əsaslı rol oynayıb. Aydındır ki, millətin var olmasında yuxarıda göstərilən obyektiv amillərin mövcudluğu təkbaşına və ayrı-ayrılıqda qətiyyən əsas deyil. Deyildiyi kimi, eyni kökdən olanların heç də hamısı bir millət topluluğu içində yaşamırlar. Bununla belə, eyni din bayrağı altında yan-yana yaşayan adamların da hamısı eyni millət birliyinə də mənsub deyil. Məsələn, Qərb dünyasında yaşayan xalqlar xristian olduqları halda, ayrı-ayrı millət topluluqlarına bölünmüş halda yaşayırlar. Yaxın və Orta Şərqin əhalisinin çoxu müsəlman olduğu halda, müxtəlif millətlərə ayrılıblar. Deməli, millətin var olmasında yalnız obyektiv təsirlərin mövcudluğu yetərli deyil. Bu məsələdə subyektiv, yəni mənəvi amillər, birlikdə yaşama arzusu və iradəsi ön plana çıxır. Başqa sözlə ifadə edilərsə, millət birlikdə yaşama arzu və iradəsi ilə birləşmiş insanların qrupudur. Yalnız bu halda insanlar bir millət olurlar. Millət mənəvi və ruhi birlikdir. Millət bir-birini sevən, könül bağlayan insanların yaratdığı şüurlu bir topluluqdur. Məhz Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan coğrafiyasında yaşayanların mənəvi birliyinə daha çox nail olundu. Məlumdur ki, mənəvi birliyin doğması üçün əlverişli zəmin lazımdır. Bu zəmin ortaq vətən, dil, soy, din və tarix kimi obyektiv amillərdir. Millətin millət olması üçün subyektiv və obyektiv amillərin bir-birini tamamlaması vacibdir. Bu halda siyasi amilin təsiri də güclü olur. Milləti siyasi qüvvə birləşdirir. 70-80-ci illərdə Heydər Əliyev və başçılıq etdiyi Azərbaycan rəhbərliyi bu siyasi qüvvənin nüvəsini təşkil edirdi. Kommunist olmalarına baxmayaraq, onlar millətin problemlərini həll edir və tərəqqiyə yönələn qərarlar qəbul edirdilər. Onlarda milli dövlətçilik baxışları, milli təəssübkeşlik var idi. Lakin millət siyasi qüvvənin əsiri deyil, mayası və maddəsidir. Elə buna görə də, hakimiyyəti illərində Heydər Əliyev gücünü Azərbaycan xalqından alırdı. Məlumdur ki, zülm olan yerdə könül birliyi halında millət yaranmır. Çünki ədalətsiz idarəçilik insanları bir-birindən ayırır, soyuqluq, hətta düşmənçilik yaradır. Ədalətsizcəsinə idarə edilən bir məmləkət orada yaşayan millətin evinə deyil, xalqlar həbsxanasına çevrilir. Fəaliyyətində "Qoy ədalət zəfər çalsın" şüarını əsas götürən Heydər Əliyevin dönəmində Azərbaycan bu ərazidə yaşayanlar üçün millət evinə çevrilmişdi.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*



# Yeni Azərbaycan Partiyası - 25

*YAP Zərdab rayon təşkilatı rayonun gənclər və idman idarəsi ilə birgə partiyanın yubileyi münasibəti ilə karate idman növü üzrə rayon birinciliyi keçirib*



Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə partiyanın Zərdab rayon təşkilatının və Zərdab rayon gənclər və idman idarəsinin birgə təşəbbüsü ilə karate idman növü üzrə rayon birinciliyi keçirilib. Yarışın açılış mərasimində çıxış edən YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova hazırda respublikamızın hər yerində YAP-ın 25 illik yubileyinə həsr olunan silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb. O, partiyanın yaranma tarixinə geniş nəzər salaraq, zamanın çətin sınaqlarından çıxmış Yeni Azərbaycan Partiyasının bu gün ölkəmizdə ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrildiyini xüsusi vurğulayıb.

P.Mahmudova Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyi uğrunda yorulmaz fəaliyyətindən, Dahi Öndərin layiqli davamçısı, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Azərbaycan gəncliyinə və idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan, apardığı uğurlu daxili və xarici siyasətdən ətraflı bəhs edib.

Rayon gənclər və idman idarəsinin rəisi İlkin Əliyev isə, öz növbəsində, çıxış edərək qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İ.Əliyev onu da bildirib ki, son illər ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət gənclərin hərtərəfli inkişafının təmin olunması üçün əlverişli şəraitin yaradılmasını sürətləndirib, gənclərin ictimai-siyasi fəallığının artmasına zəmin və stimul yaradıb. Çıxışların ardınca yarışa start verilib və sonda qaliblərə diplom və hədiyyələr təqdim olunub.

***R.NURƏDDİNOĞLU***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Eminli Aytən Yusif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nin Kimya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Ağayeva Çinarə Əjdər qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

səs

Son səhifə 9 noyabr

# YAP Quba rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirib

Dünən Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə tədbiri keçirilib. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Yusif Abidov bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi respublikamızda böyük təntənə ilə qeyd edilir. Yeni Azərbaycan Partiyasının ölkəmizin aparıcı siyasi qüvvəsi oluğunu qeyd edən rayon təşkilatının sədri, onun yaradılmasını zərurətdən doğmuş, böyük tarixi hadisə kimi dəyərləndirib.

Y.Abidov Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürərək, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycanın təməlini qoyduğunu bildirib. Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa bir müddətdə əsl siyasi qüvvə kimi formalaşdığını və bu gün öz sıralarında 700 mindən çox üzvü ehtiva etdiyini diqqətə çatdırıb. Minlərlə vicdanlı və və əqidəsinə sadiq qalan insanın onun sıralarında birləşməsinin Heydər Əliyev fenomeninin və dühasının misilsiz qüdrətindən xəbər verdiyini vurğulayıb.



Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev, YAP Quba rayon təşkilatı idarə heyətinin üzvü Yaşar Məmmədov, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Yevda Abramov, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı idarə heyətinin üzvü, Quba rayon Ağsaqqallar Şurasının sədri Həsən Günəşli Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, əldə etdiyi böyük nailiyyətlərdən danışıblar. Bildirilib ki, Azərbaycanın müstəqil, demokratik, sivil dövlət kimi qurulması və möhkəmləndirilməsində, vətəndaş cəmiyyəti quruculuğunda fəal rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Sonra Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə əlaqədar partiya həyatında fəallıq göstərmiş bir qrup partiya üzvü Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı tərəfindən fəxri fərmanla təltif olunub və hədiyyələr təqdim olunub. Eyni zamanda, partiyanın yubileyi münasibətilə rayon təşkilatı tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının tələbəsi Nəcibə Mürsəlovaya aylıq təqaüd kartı təqdim olunub. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş üzvlərə partiya vəsiqələri təqdim edilib. Tədbir konsert proqramı ilə davam etdirilib.

***NƏZAKƏT***

# UTGDİB "Şəhidlər ölməz-Vətən bölünməz" adlı düşərgəni təşkil edib



Azərbaycan Respublikası Uşaq və Tələbə - Gənclər Dünyası İctimai Birliyi AR Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Şəhidlər ölməz-Vətən bölünməz" adlı düşərgəni İsmayıllı rayonunun Diyallı kəndində 26-29 oktyabr tarixlərində təşkil etdi. Layihə, həmçinin, "Yerli" Kənd Gənclərinin İnkişaf Proqramı" çərçivəsində həyata keçirilmişdir. Layihənin məqsədi vətənpərvərlik hissini uşaqlarımıza, gənclərimizə aşılamaq, onlarda Vətənə sevgi, sədaqət və fədakarlığı tərbiyə etməkdir.

30 nəfərə yaxın layihə iştirakçıları ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasından seçilib. Düşərgədə iştirakçılara mövzuya uyğun məlumat verilib və vətənpərvərlik mövzusunda oyunlar və musiqi təşkil edilib. Layihə iştirakçılarına vətənpərvərlik ruhunda köynəklər və papaqlar paylanılıb və layihə haqqında maarifləndirici bukletlər verilib. Layihə iştirakçılarına düşərgənin bağlanış mərasimində sertifikatlar verilib.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500